14_27 IYUl-QARA.qxd 4/17/2025 9:58 PM Page 1


# UNİKAL

№14 (2244) 18 aprel 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Azərbaycanın sülh prosesində
## “incə ayirib sıx toxumaq” strategiyası




Səh.9

## "Ermənistanla Azərbaycan arasında müharibəni unudun" - Paşinyan

*”Ermənistanla Azərbaycan arasında yeni eskalasiya və yeni müharibə olmayacaq, sülh olacaq”. ”Unikal” xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə 2024-cü il büdcəsinin icrasının müzakirəsi zamanı deyib. Baş nazir qeyd edib ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını və güc tətbiqinin yolverilməzliyini tanıyıb: ”Üstəlik, bu, təkcə siyasi deyil, həm də hüquqi müstəvidədir. İstər Ermənistan, istərsə də Azərbaycan mahiyyətcə Alma-Ata Bəyannaməsini ümumilikdə münasibətlərin tənzimlənməsi üçün əsas...*

Səh.2

## Ölkədə kirayə mənzillərin qiyməti bahalaşır



*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı ”Unikal”a müsahibə verib. O, Bakıda söküləcək binaların mənzil bazarında qiymətlərə necə təsir edəcəyindən, hazırda qiymətlərin necə dəyişdiyindən, bağ evlərinə marağın necə olmasından, sənədsiz evlərdən və digər məsələlərdən danışıb.*

Səh.4

## Azərbaycanda məmurların yeni həbs dalğası başlaya bilər



*2024-cü ildə Hesablama Palatası həyata keçirdiyi kənar dövlət maliyyə nəzarəti tədbirləri hesabına 574,9 milyon manatlıq pozuntu aşkar edib. Bu barədə Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabatda bildirilir. Sənədə əsasən, bunun 113,3 milyon manatı uyğunluq elementləri üzrə dövlət büdcəsinə...*

Səh.5

## Elm müəssisələrinin işi yenidən qurulur!



*Azərbaycanda elmin inkişafı dövlətin prioritet istiqamətlərindəndir. Ölkəmizdə elmlə məşğul olan təhsil müəssisələrinin fəaliyyətinin gücləndirilməsi istiqamətində son illər çox işlər görülüb. Bu günlərdə Elm və Təhsil Nazirliyinin tabeliyindəki bəzi qurumlar publik hüquqi şəxsə çevrilib. Prezident İlham Əliyev...*

Səh.11

14_27 IYUI-QARA.qxd 4/17/2025 10:04 PM Page 2



# "Zəng ediblər ki, yazma, uşağına nəsə edərlər" - Müğənni Nura Suri



***"Heç kəs toy edib şadlıq sarayından çek almır. Niyə? Evinizdə çörək bişirib satsanız, vergi qapınızı kəsdirəcək ki, cərimə ödə, çörəyi satanda çek verməmisiniz. Necə olur ki, 50-500 min arası şadlıq sarayına toya pul ödənilir və heç kəs nə çek tələb edir, nə də çek verir?"***

Bu sözləri müğənni Nura Suri sosial media hesabında yazıb. O, növbəti dəfə restoran sistemində olan nəzarətsizliyə diqqət çəkib: "Necə olur ki, sənədlə həmin o möhtəşəm şadlıq sarayları adi adamların adına olur və heç kəs maraqlanmır, səndə bu pul haradandır? Banka ay ərzində 10 mindən artıq pul qoyan kimi haqq-hesab soruşurlar adamlardan. Şadlıq saraylarını işlədənlər isə fotoqrafın, dekor şirkətinin, tort hazırlayanın puluna şərik olur, monopoliya yaradır, gözü doymur. İnsanların qazancının qarşısını alırsınız ki, 5-3 manat qazanan da qazana bilməsin. İnsanların çörəyinə bais olub mafiya qurublar. Hamıdan faiz alırlar. Bəsdirin də!

O gün status yazmışam, hamı paylaşıb: "Halal olsun, səsimiz oldunuz" yazır. Niyə oturub gözləyirsiniz ki, mən yazım? Niyə özünüz danışmırsınız? Niyə toy yiyəsi şadlıq saraylarının şərtləri ilə razılaşır? Suallar çoxdur, hamı da hər şeyi görür, bilir və susur.

Mən də doğruları yazanda, bəzi gerizəkalılar özlərinə əl qatırlar ki, "Nuranın başı gedib, hər şeyə fikir bildirir, dəli olub" və s. Özünüz pıçhapıçla danışdıqlarınızı mən ictimailəşdirəndə "dəli" oluram? Ən azından vicdanım təmizdir, susmadığım üçün. Siz isə boyun əyirsiniz adı administratorlara (hamısına şamil olunmur). Ay aman, birdən burarlar sizi hansısa tədbirdən. Burublar da hər yerdən, möcüzə gözləyirsiniz? Hələ dünən bəziləri zəng ediblər ki, "nəyinə lazım yazma, demə, sabah sənə, ya uşağına nəsə edərlər. Bütün şadlıq sarayları məmurlarındır".

Qoy, məni bu sözləri yazdığıma görə şərləsinlər, ya da uşağıma nəsə etsinlər. Dərəbəylikdir? Bu nə qorxudur içinizdə?".

# Elza Seyidcahan canlı yayımda telefonu Zaurun üzünə söndürdü



***Əməkdar artist Elza Seyidcahan yenidən canlı efirdə atdığı addımla gündəmə gəlib.***

Məhkəməlik olduğu aparıcı Zaur Nəbioğlunun canlı efirinə qoşulan sənətçi telefonu onun üzünə bağlayıb. Bəstəkar-müğənni sözügedən proqramda qonaq olan müğənni Elçin Cəfərovla aralarında yaranan anlaşılmazlığa da aydınlıq gətirib:

"Mən sizinlə məhkəmədə görüşəcəyəm. Siz məni çox istəməyə borclusunuz. Bizi qoruyub, qayğımıza qalmalısınız. Çünki Xalq bizi sevir.Yaxın zamanda Elçinlə studiyada görüşdük, qucaqlaşdıq. Gözləmədiyim reaksiya vermişdi. O sözü savadsız, cahil biri desəydi, anlayardım. Mənim aləmimdə yaradıcı insanlar üçün anlamamaq deyə, bir qavram yoxdur. Gördüyümüz işin dəyərini dövlətimiz verib. Yaradıcılığa gəldikdə isə evdə doğmalarım belə anlamaya bilər. Məni anlamayan oxucu və dinləyicilərimi çox gözəl qəbul edirəm". Sonda onu da bildirək ki, sənətçi aparıcının sözünün ağzında qoyaraq telefonu Zaurun üzünə bağlayıb.

Pərt olan Nəbioğlu Əməkdar artisti sevməyə borclu olduğunu bilmədiyini deyərək, vəziyyətdən çıxmağa çalışıb.



# "50 yaşım olacaq, "Avroviziya"da nə işim var?" - İlhamə Qasımova

***Müğənni İlhamə Qasımova izləyicilərinin ona ünvanladığı sualları cavablandırıb.***

"El canlı" verilişində qonaq olan sənətçi yaşı ilə bağlı "49 yaşım olacaq" cavabını verib. "Müğənnilik yaxşıdır, yoxsa müəlliməlik" sualına ifaçı "Müğənnilik, müəllimlik əsəb gətirir. Bir uşaq qulaq asmır (səsini alırlar)" reaksiyasını verib.

İ.Qasımova plastik əməliyyat etdirmək istədiyini açıqlayıb. O bildirib ki, qorxsa da, plastik əməliyyat haqda düşünür.

Müğənni "Avroviziya"ya qatılıb, qatılmayacağı haqda suala "50 yaşım olacaq. "Avroviziya"da nə işim var. Gənclər var, onların yolu açılsın" cavabını verib.

# Rəngli hicablarını tənqid edənlərə cavab verdi



***"Əslində rəng məsələsi məssəblərə görə hissəyə bölünür. Mən ilahiyyatçı, dindar deyiləm. Qapanmış bir xanımam, özümü belə təqdim edirəm. 29 yaşında da hicaba keçdim. İndi 42 yaşım var və hələ ki, bunu daşıya bilirəm. Sənət adamıyam, belə camiyyədə bu addımı atmaq hər adamın işi deyil".***

Bu sözləri Axşam.az-a açıqlamasında müğənni Xuraman Şuşalı deyib. Sənətçi rəngli və qaşlı hicabları tənqid edənlərə cavab verib:

"Məni müzakirə edən mən qədər bu addımı ata blən olmalıdır. İslam, tənqidi,müzakirəni sevmir. Rəbbim deyir ki, mənimlə olanı özüm görürəm. Başqasında eyib, əyri nəsə axtaran özü ilə ilgilənsin. Mən ideal olmayanlardanam. Din demir tərkidünya olun. Şou-biznesdə örtünə bilirəmsə, özümü alqışlayıram. Eyib axtarmaq o qədər asandı. Qonşu, filankəs nə deyərlə yaşamıram. Özüm öz günahıma görə cavab verəcəyəm. Hər kəs özü ilə maraqlansın".

# Samirə Əfəndi yenidən Avroviziyada

***Müğənni Samirə Əfəndi yenidən "Avroviziya"ya yollanır.***

Sənətçi Bazeldə keçiriləcək olan müsabiqədə qonaq ulduz qismində səhnəyə çıxacaq. Əfəndi Avroviziya mahnısı "Mata Hari"ni səsləndirəcək.

Onun hansı gün səhnədə olacağı isə qeyd edilməyib. (olay)



14_27 IYUI-QARA.qxd 4/17/2025 10:06 PM Page 3





# Ceyhun Bayramov Sloveniya şirkətlərini Qarabağın bərpa işlərində iştiraka dəvət etdi

***Sloveniya şirkətlərini Qarabağa və Şərqi Zəngəzura dəvət edirik, şirkətlər regionda aparılan bərpa işlərində iştirak edə bilərlər.***

"Unikal" xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Sloveniya biznes- forumunda çıxışı zamanı deyib.

O bildirib ki, Azərbaycanın əlverişli geostrateji mövqeyi, regionda lider iqtisadiyyatı, müasir infrastrukturu və güclü dövlət dəstəyi ilə beynəlxalq biznes üçün cəlbedici mühit yaradır.

"Azərbaycanla Sloveniya arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi mövzusunda danışarkən, turizm sektorunun potensialını nəzərdən qaçırmaq olmaz. Hər iki ölkənin zəngin mədəni irsi, möhtəşəm təbiəti və tarixi abidələri qarşılıqlı turizm üçün geniş imkanlar yaradır. Bundan əlavə, ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, həmçinin əməkdaşlığın yalnız paytaxt şəhərlərlə məhdudlaşmaması, regionlararası biznes əlaqələrinin inkişafı əməkdaşlığımızın şaxələndirilməsi və qarşılıqlı investisiyaların təşviqi baxımından faydalı olacaq. Son 20 ildə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş kimi mühüm rol oynayıb", - deyən nazir bildirib.

Ceyhun Bayramov bu cür biznes-forumların mütəmadi keçiriləcəyinə ümidini ifadə edib və gələcəkdə həm ümumi, həm də tematik forumların ikitərəfli ticarətin, qarşılıqlı investisiyaların artmasına yeni təkan verəcəyini diqqətə çatdırıb.

Nazir, həmçinin deyib ki, gələn il Azərbaycanla Sloveniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi tamam olsa da, ölkələr arasındakı dostluq və əməkdaşlıq son 30 illə məhdudlaşmır: "80 il əvvəl Azərbaycanın qəhrəman oğlu Mehdi Hüseyn partizan döyüşlərində "Mixaylo" adı ilə tanınaraq, Sloveniyanın faşist işğalından azad olunması uğrunda canından keçərək xalqlarımız arasında qardaşlıq əlaqələrinin təməlini qoyub. Azərbaycanla Sloveniya arasında son dövrlərdə baş tutan yüksəksəviyyəli təmaslar, dərinləşən siyasi dialoq, iqtisadi əməkdaşlığın davamlı artımı, birgə işçi qrupun iclası və biznes-forumu tərəflərin geniş sahələr üzrə əməkdaşlığı inkişaf etdirməklə qarşılıqlı marağın və güclü siyasi iradəsini aydın şəkildə nümayiş etdirir. İnanırıq ki, işçi qrupunun iclaslarından ticarət, investisiya, enerji, informasiya texnologiyaları, kənd təsərrüfatı, əczaçılıq, turizm, təhsil və mədəniyyət kimi müxtəlif sahələrdə əməkdaşlığımızı gücləndirmək üçün əsas mexanizm kimi istifadə etməliyik. Biz bu müzakirələr çərçivəsində qəbul olunmuş qərarların tam icrası üçün bütün zəruri birgə səyləri səfərbər etməliyik. Biznes-forum iş adamları, şirkət nümayəndələri və işgüzar dairələri arasında birbaşa əlaqələrin qurulması, qarşılıqlı faydalı əməkdaşlıq sahələrinin müəyyən edilməsi və uyğun layihələrin həyata keçirilməsi baxımından çox önəmli bir platformadır".

# Bakının bəzi rayonlarının icra başçıları öz ampluasında

## Belə getsə, vəzifələri ilə vidalaşmalı olacaqlar - Növbəti dəfə "sinifdə qalanlar"!

***Bakıda aprelin 15-dən 16-na keçən gecədən başlayan intensiv yağışlar paytaxtın müxtəlif yerlərində növbəti dəfə ciddi fəsadlara səbəb olub.***

Yollar, tunellər və dayanacaqlar su altında qalıb, nəqliyyatın hərəkətində ciddi çətinliklər yaranıb. Taksi və avtobusların fəaliyyəti iflic olub, vətəndaşlar isə evlərinə qayıtmaq üçün saatlarla suyun içində qalmaq məcburiyyətində qalıblar.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi güclü yağıntılarla bağlı öncədən bir neçə dəfə xəbərdarlıq etmişdi. Nazirliyin məlumatında bildirilirdi ki, yağıntılar nəticəsində şəhər ərazisində sel və su basmaların olacağı gözlənilir.

Bundan sonra gözləmək olardı ki, paytaxt rayonlarının icra hakimiyyətləri gözlənilən fəsadların miqyasını minimuma endirmək üçün qabaqlayıcı tədbirlər görəcəklər. Lakin Bakı rayonlarından bir neçəsinin yerli rəhbərliyi bu dəfə də "sinifdə qaldı" - həmin rayonlarda vətəndaşların ciddi narazılığına səbəb olan mənzərələr ortaya çıxdı.

İctimaiyyətin narazılığı anlaşılandır. Məsələn, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu mövzu ilə bağlı TNS-ə deyib ki, bəzi qurumlar vəzifələrini yerinə yetirə bilmir: "Bəzi qurumların rəhbərliyindəki şəxslər vəzifələrinin verdiyi imkanlardan yalnız öz məqsədləri üçün istifadə edirlər. Əslində, Bakıda qeyri-adi təbiət hadisəsi baş verməyib. Bir az yağış yağıb, demək olar ki, şəhərdə həyat dayanıb. Tunellərin hamısını su basıb. Burada həm tunelləri tikən şirkətlər ciddi məsuliyyət daşıyır, həm onları saz vəziyyətdə saxlamalı olan qurumlar. Onların yarıtmaz fəaliyyəti nəticəsində vətəndaşlara maddi, mənəvi ziyan dəyib. Buna görə, vətəndaşlar onlara dəyən ziyanın ödənilməsi üçün məhkəmələrə müraciət etməlidirlər".



Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı isə "Bakupost"a deyib ki, tikinti maqnatları Bakının bir sıra rayonlarında şəhərsalma qaydalarına riayət etmədən binalar tikiblər. Onların rüşvət, korrupsiya yolu ilə tikdikləri sistem indi çökməyə başlayıb: "Dəllala layihə, tikinti qaydaları lazım deyil, pul lazımdır ki, ondan icra hakimiyyətinə, digərlərinə rüşvət verib işini görsün. Ona görə də dəllal yol, kanalizasiya qurmaq haqqında fikirləşmir. Beş yüz nəfərin yaşaya biləcəyi məhəlləyə min beş yüz nəfəri yerləşdirəndə axırı belə olur..."

Vətəndaşları xüsusi ilə qıcıqlandıran və acıqlandıran isə odur ki, artıq birinci dəfə deyil bəzi icra başçılarının və onların komandasının oxşar situasiyalarda hazırlıqsızlığı, laqeydliyi, passivliyi hiss edilir. Uzağa getməyək, keçən ilin oktyabrında da Bakıya yağan yağışlar zamanı paytaxtın bəzi rayonlarında subasmalar yaşanmış, göllər yaranmışdı. O vaxt da cəmiyyətdən sərt tənqidi səslər yüksəldi, lakin belə görünür, bir sıra məmurlar hələ də bu tənqidlərdən nəticə çıxarmaq və öz vəzifə borclarının öhdəsindən gəlmək iqtidarında deyillər.

Üstəlik, yada salmaq yerinə düşər ki, ötən ilin avqustunda Bakı Şəhər İcra Hakimiyyətində paytaxt rayonları İcra Hakimiyyətləri başçıları və şəhərin təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə növbəti müşavirə keçirilmişdi. Həmin vaxt meriyanın Mətbuat xidmətindən verilən məlumatda bildirilirdi ki, müşavirədə bir sıra məsələlər, o cümlədən paytaxtda aparılan əsaslı təmir, abadlıq-quruculuq, yaşıllaşdırma işlərinin vəziyyəti və digər məsələlər müzakirə edilmişdi. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov öz çıxışında bildirmişdi ki, bu gün ölkə başçısı İlham Əliyev məmurlar qarşısında ciddi tələblər qoyub, onlara təmiz əllərlə işləməyi və təvəzökar olmalarını bir vəzifə kimi tapşırıb. Lakin hələ də bəzən neqativ hallar müşahidə edilməkdədir. Bununla əlaqədar rayon İcra Hakimiyyətlərinin başçılarına ciddi xəbərdarlıq edilərək təcili tədbirlərin görülməsi tələb edilib.

Lakin hələ də Bakının bəzi rayonlarında yaşıllıqların məhvindən, ağacların kəsilməsindən tutmuş qanunsuz tikililərin inşasınadək bir sıra özbaşınalıqlar baş verir. Bu sıraya paytaxta yağan son yağışlar zamanı müəyyən yerlərdə müşahidə olunan xoşagəlməz mənzərəni də əlavə eləsək, belə görünür ki, Bakıdakı rayonlardan bir neçəsinin icra başçısı onlara verilən tapşırıqlara da, edilən xəbərdarlıqlara da, ictimai rəyə də, dövlətin və vətəndaşların maraqlarına da etinasız, dırnaqarası yanaşır. Belə icra başçılarının yaxın vaxtlarda öz postları ilə vidalaşmaq məcburiyyətində qalması əsla təəccüb doğurmayacaq.

***Toğrul Əliyev***

# Qukasyan azərbaycanlıların Xankəndidən çıxmağa məcbur edildiklərini etiraf etdi

***Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Arkadi Qukasyan məhkəmənin ötən iclasında tədqiq edilmiş sənədlərlə bağlı dindirilib.***

"Unikal" xəbər verir ki, o, dövlət ittihamçılarının suallarını cavablandırarkən azərbaycanlıların Xankəndidən çıxmağa məcbur olunduqlarını etiraf edib.

Arkadi Qukasyan azərbaycanlılara qarşı cinayət törətmiş dəstələrin rəhbərlərindən - Robert Köçəryanla 1992-ci ildən, Samvel Babayanla 1993-cü ildən, Murad Petrosyanla 2000-ci ildən sonra tanış olduğunu bildirib.

Təqsirləndirilən şəxs Xəlfəliçay üzərindəki körpünün partladılması barədə suala cavabında isə bu hadisəni xatırladığını deyib.

A.Qukasyan hadisələr baş verən vaxtlarda - ötən əsrin 90-cı illərində Ermənistandan Azərbaycan ərazilərinə (Xankəndiyə və digər yerlərə) gələnlərin olduğunu təsdiqləyib, lakin silahların haradan gətirilməsi barədə məlumatsız olduğunu iddia edib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu



zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

14_27 IYUl-QARA.qxd 4/17/2025 10:09 PM Page 4



# Azərbaycanın sülh prosesində "incə əyirib sıx toxumaq" strategiyası

***Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində Azərbaycanın Ermənistanla sülh gündəmi, bunun vacibliyi və İrəvanın qeyri-müəyyən mövqelərini xatırlatmaq üçün mühüm bir məqam oldu. Bundan əlavə, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü bu xüsusda əhəmiyyətlidir.***

Liderlərin gündəliyində şübhəsiz ki, Azərbaycan-Ermənistan münasibətləri, onun nəticələrindən ərsəyə gələcək regional düzən müzakirə predmeti kimi danışıqlarda yer alıb. Bu barədə fikirlərini bildirən Sosial Tədqiqatlar Mərkəzinin nümayəndəsi, siyasi şərhçi Aqşin Kərimov deyib ki, Ermənistanın beynəlxalq və regional situasiyadakı taleyi ilə əlaqədar qeyri-müəyyənliklər artdıqca, o, regiondan kənar güclərin proksi müharibə meydanına çevrildikcə, İlham Əlyevlə Rəcəb Tayyib Ərdoğanın müzakirə istiqamətləri daha aydın şəkildə görünür. Onun sözlərinə görə, forumda belə müzakirələrin nə qədər labüd olması Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın "operativ sülh" ritorikasına müraciət etməsi fonunda da şərh oluna bilər: "Ararat Mirzoyan Azərbaycan, Ermənistan və Gürcüstan xarici işlər nazirlərinin iştirakı ilə keçirilən "Cənubi Qafqazda regional əməkdaşlıq: gərginliklər və imkanlar" adlı paneldə sülh gündəmində ölkəsinin dırnaqarası sadiqliyini vurğulayıb. Ararat Mirzoyan bildirib ki, Ermənistan Azərbaycanla sülh müqaviləsini dərhal imzalamağa hazırdır. Ermənistan Azərbaycan tərəfinin bütün sənədləri qəbul etməyə və hətta 10 dəqiqə ərzində razılaşmaya imza atmağa hazırdır. Ararat Mirzoyanın paneldə "sülhə çevik hazırlıq"dan danışmasının Ermənistanın mövcud sülh proqramında razılaşdırılan məqamların tez bir şəkildə sülh sazişi çərçivəsinə alınmasındakı şübhəli maraqlarını göstərir. Eyni zamanda, İrəvanın razılaşdırılan məqamlara beynəlxalq dəstək qazanması üçün prioritetlərini ortaya qoyur. Ararat Mirzoyana cavab verən Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun dedikləri isə Ermənistanın yekun və hərtərəfli sülhə uyğun davranmadığını sübut edir".

Şərhçi onu da qeyd edib ki, mövcud sülh proqramı Azərbaycanla Ermənistan arasında mühüm irəliləyişə səbəb olsa da, Azərbaycan hələ də ehtiyatlı davranır və sənədin imzalanmasına tələsmir: "Bunun səbəblərini belə təsnifatlandırmaq olar: Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları yer alır. Ermənistan mövcud şərtlərlə sülh sazişini imzalamağa çalışmaqla, gələcəkdə Bakının İrəvana qarşı Konstitusiya dəyişikliyi ilə bağlı tələb səsləndirməməsi üçün hüquqi öhdəlik yaratmaq istəyir.

ATƏT-in Minsk Qrupunun fəaliyyətinin ləğvi ilə bağlı Ermənistanda tam aydın mövqe yoxdur. İrəvan ATƏT-in Minsk Qrupunun ləğvini istəsə belə, alternativ olaraq Avropa İttifaqının Ermənistandakı Missiyasının Azərbaycanla münasibətlərdə "tənzimləyici" xüsusiyyətlərinə dəstək verir. Azərbaycan bu mövzuya xüsusi həssaslıqla yanaşır. Çünki Ermənistanın sərhədlərinə kəşfiyyat şəbəkəsi yerləşdirməsi Bakının maraqlarına uyğun gəlmir.

Ermənistan hazırkı razılaşdırılmış sülh sazişi layihəsi mətnini Qərbi Azərbaycanlıların qayıdışına maneə kimi interpretasiya edə bilər. Görünür ki, sülh mətnində konseptual olaraq qayıdış məsələləri əksini tapsa da, Ermənistan ümumi yanaşmalara detallar əlavə etməməyə cəhd göstərir.

Ermənistan Azərbaycanın əsas hissələri ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək quru yolunun dəhliz statusu ilə açılmasına qarşıdır. İrəvan tələsik sülhə nail olmaqla Azərbaycanın gələcəkdəki şərtləri önünə hasar çəkməyi planlaşdıra bilər.

Ermənistanın silah idxalı kanallarında Azərbaycana qarşı mövqe tutmuş dövlətlərlə münasibətləri Bakıda haqlı suallar yaradır. Bu suallar Azərbaycanın Ermənistanın boynuna hərbisizləşdirməklə bağlı tələblər və şərtlər qoymasına əsaslar yaradır. Hesablamaq olur ki, Ermənistanın belə bir məcrada sülh sazişini operativ imzalamaq həvəsində olması Azərbaycanın şübhə və ehtiyatlılığını gücləndirir. Çünki Ermənistanın yanaşmaları İrəvanda gələcək üçün revanş mexanizminə barmaq yeri qoymağa hesablanmış səylərin tərkib hissəsidir. Ona görə də, Azərbaycan büdcə ayırmalarında, strateji planlaşdırmalarında müdafiə və təhlükəsizlik bəndinə xüsusi önəm verməkdə haqlıdır".



Məsələ ilə bağlı münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, Ermənistan hələ də münaqişənin davam etdiyi görüntüsünü yaratmağa çalışır: "Halbuki artıq Minsk qrupunun fəaliyyəti bitib. Yəni Ermənistan tərəfi hələ də səmimi sülhdə maraqlı deyil. Çünki Paşinyan sözdə bunu deyir, amma praktiki olaraq addımlar atmır. Azərbaycanın isə tələbi ondan ibarətdir ki, konstitusiya dəyişməlidir, ATƏT-in Minsk qrupunun buraxılmasına gedilməlidir. Amma Ermənistan bunu sülh müqaviləsinə salmaq istəyir. Yəni Ermənistan bu prosesə sülh müqaviləsində maraqlı olmadığı görüntüsünü yaradır. Azərbaycan isə bununla qəti razı deyil. Bu isə Paşinyanın növbəti manevridir. O, göstərmək istəyir ki, sülhə hazırdır, amma sülhü bloklayan, əngəlləyən prosesə getmək istəmir".

***Seymur Əli***



## "AXC indiki Ermənistanın 60%-dən çoxunu əhatə edir" - Mirzoyan

***"Azərbaycan Xalq Cümhuriyyəti indiki Ermənistanın suveren ərazilərinin 60%-dən çoxunu əhatə edir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Antalya Diplomatik Forumu çərçivəsində Türkiyə KİV-ə müsahibəsində deyib.

"Azərbaycan Konstitusiyasında İstiqlal Bəyannaməsinə istinad var. Onların İstiqlal Bəyannaməsində bəyan edilir ki, indiki Azərbaycan Respublikası SSR-in deyil, Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Sovet İttifaqından əvvəl mövcud olmuş ilk Azərbaycan Respublikası isə indiki Azərbaycandan qat-qat böyük ərazilər üzərində öz suverenliyini elan edib. O, indiki Ermənistanın suveren ərazilərinin 60%-dən çoxunu əhatə edir", - deyə Mirzoyan qeyd edib.

Nazir həmçinin bildirib ki, İrəvan sülh sazişini imzalamağa hazırdır: "Dünyada bütün mümkün suallara cavab verəcək sülh sazişi yoxdur. Əgər iki cəmiyyət arasında düşmənçilik və qarşıdurma varsa, bir sənədlə hər şeyi həll edə bilməzlər. Sülh sazişi ikitərəfli mexanizmin - komissiyanın yaradılmasını nəzərdə tutur ki, bu mexanizm sazişin icrasına nəzarət edəcək, həmçinin proses zamanı qeydə alına biləcək və çox güman ki, bütün mümkün çətinliklər və qanun pozuntuları ilə məşğul olacaq. Başqa sözlə, biz bu problemləri idarə etmək üçün toplu hazırlayırıq".

Mirzoyan sülh sazişinin imzalanma yeri kimi Türkiyənin ev sahibi ola bilməsi ilə bağlı jurnalistin sualına belə cavab verib: "Düşünürəm ki, hər kəs üçün bütün nüansları başa düşmək vacibdir, əks halda mövcud vəziyyət haqqında dəqiq təsəvvürünüz olmayacaq. Bəli, alternativ olmadığına görə danışıqlar aparırıq. Əgər bizim sülh gündəmimiz varsa, o zaman danışıqlara hansı alternativ ola bilər? Beləliklə, danışıqlar davam edir. Yerə gəlincə, bilirsiniz, bu vacib deyil. Bunu Ermənistanla Azərbaycan sərhədində imzalamaq fikri var. Daha bir neçə paytaxt öz xidmətlərini təklif edir, mən heç nəyi istisna etmirəm. Mən hələ o təklifi almamışam. Heç bir variantı istisna etmirəm".

Nazir həmçinin ölkədə konstitusiya dəyişikliyindən də damnışıb: "Ermənistanda demokratik inqilab baş verəndə və indiki hakim partiyamız hakimiyyətə gələndə biz demək olar ki, dərhal Konstitusiyamıza dəyişiklik edəcəyimizi bəyan etmişdik. İndi isə bu, təkcə mövcud Konstitusiyaya dəyişiklik deyil, həm də yeni Konstitusiya olacaq. Konstitusiya dəyişiklikləri ilə məşğul olan mövcud komitə hüquqi mexanizmləri müzakirə edir və bildiyim qədər, komitənin mandatı 2026-cı ildə başa çatır. Həmin ildə parlament seçkilərimiz var. Deməli, 2018-ci ildən biz yeni Konstitusiyaya ehtiyacın olmasında israrlıyıq və bu, gündəmimizdə qalır. Biz bunu həyata keçirməyə hazırlaşırıq.

Amma məsələni Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə əlaqələndirmək konstruktiv deyil".

XİN rəhbəri Aİ müşahidəçiləri ilə bağlı verilən sualı da cavablandırarkən qeyd edib ki, Avropa Monitorinq Missiyasının mandatı ilk növbədə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini dəstəkləməyə, eləcə də sərhəddə sabitliyin təmin edilməsinə yönəlib: "Sülh müqaviləsi imzalanan və qüvvəyə minən kimi artıq belə bir missiyaya ehtiyac qalmayacaq.

Bu o deməkdir ki, sərhəd boyu sabitlik bərqərar olduqdan sonra mandat, missiya tamamlanıb və heç bir əlavə işə ehtiyac qalmayacaq".

Mirzoyanın sözlərinə görə, hazırda üç ölkənin (Azərbaycan, Türkiyə və Ermənistan) birgə görüşü ilə bağlı heç bir razılaşma və ya plan yoxdur: "Lakin bir sıra müzakirələr gedir. Ümid edirik ki, bu prosesin müsbət nəticəsi olacaq".

***Ağarza Elçinoğlu***

# Prezidentdən Azərbaycan İnvestisiya Holdinqi ilə bağlı fərman



***Prezident İlham Əliyev 5 noyabr 2020-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"nı genişləndirib.***

"Unikal" xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni Fərman imzalayıb. Fərmana əsasən, siyahıya "Azərbaycan alüminiumu" ASC, "Azəralüminium" və "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-lər verilib.

Həmin şirkətlər yaxın vaxtlara qədər hazırda ləğv prosesində olan "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin balansında olub.

# Anar Əliyevə iki yeni müavin təyin edildi




***Prezident İlham Əliyevin Sərəncamları ilə Anar Bayramov və Rəşad Mustafayev əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinləri təyin ediliblər.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb.

Qeyd edək ki, A.Bayramov hazırkı vəzifəsinə qədər nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri olub.

R.Mustafayev isə 2000-2001-ci illərdə Dövlət Əmlakı Nazirliyinin Hüquq şöbəsində aparıcı məsləhətçi, 2001-2015-ci illərdə İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsində aparıcı məsləhətçi, baş məsləhətçi, sektor müdiri, müdir müavini, 2015-2023-cü illərdə "Cənub Qaz Dəhlizi" QSC-nin Baş direktorunun müavini, 2023-cü ildən hazırkı vəzifəsinə qədər "Ekol Mühəndislik Xidmətləri" QSC-nin Baş direktoru olub.

# Azərbaycan 4 ölkəyə xəbərdarlıq etdi

***Nəzarət tədbirləri çərçivəsində ölkəyə idxal olunan bir sıra qida məhsullarından götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində uyğunsuzluqlar aşkarlanıb. Müəyyən olunan konkret faktlar üzrə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən qanunamüvafiq tədbirlər görülür.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a verilən məlumata görə, Yeni Zelandiya, Çin, Özbəkistan, Rusiyadan idxal olunan qida məhsullarında aşkarlanan uyğunsuzluqlarla əlaqədar müvafiq sağlamlaşdırıcı tədbirlərin görülməsi üçün sözügedən ölkələrin aidiyyəti qurumlarına xəbərdarlıq məktubları ünvanlanıb və qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

Uyğunsuzluq aşkarlanan məhsul partiyaları ilə https://afsa.gov.az/az/xeberler linkinə daxil olmaqla tanış olmaq olar.

# DSMF-də nöqsanlar aşkarlandı

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) auditi zamanı 117 milyon manatdan çox məcburi dövlət sosial sığorta haqqının vətəndaşların fərdi şəxsi hesablarında əks olunmadığı müəyyən edilib.***




"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının 2025-ci ilin I rübünə dair "Dövlət auditi" bülletenində bildirilir. Sənəddə deyilir ki, "Əmək pensiyaları haqqında" qanuna əsasən pensiya kapitalı fərdi şəxsi hesabın sığorta və yığım hissəsində toplanan vəsaitlərə əsaslanır. Bu səbəbdən də, ödənilmiş sosial sığorta haqlarının düzgün uçotu və hesabatlılığı gələcək pensiya təminatının maliyyə bazasını formalaşdırır. Audit zamanı müəyyən edilib ki, aidiyyəti dövrlərdə sığortaedənlərin Fondun xəzinə hesablarına ödədiyi 117,4 milyon manat sosial sığorta haqqı, hesabatların təqdim olunmamasına görə sığortaolunanların fərdi şəxsi hesablarında əksini tapmayıb. Bu hal gələcəkdə vətəndaşların pensiya hüquqlarının formalaşmasında sosial sığorta stajının və ya pensiya kapitalının kifayət etməməsinə, hətta bəzi hallarda pensiya hüququndan məhrum olmalarına səbəb ola bilər.

Sığorta haqlarının fərdi hesabda əks olunmaması iki dövr üzrə qruplaşdırılıb:

- 2006-2016-cı illər üzrə yaranmış qalıqlar əsasən sığortaedənlərin təqdim etdiyi B3 formalarında sosial sığorta nömrəsinin qeyd olunmaması və ya ümumiyyətlə hesabatın təqdim edilməməsi ilə bağlı olub;
- 2017-ci ildən sonra isə əsas problem hesabatların ümumiyyətlə təqdim olunmaması olub. Bu dövrdə formalaşan qalıq məbləğinin artımı müşahidə edilib.

2006-2016-cı illər üzrə qalıqların daha çox sayda sığortaolunanı əhatə etməsi səbəbindən hesablarda əks olunmayan sığorta haqları ilə bağlı fəaliyyət əsasən hüquqi şəxslərlə məhdudlaşıb. Bu təcrübə isə 2017-2023-cü illərdə fiziki şəxslər və torpaq mülkiyyətçilərinin say və məbləğ baxımından xüsusi çəkisinin artmasına səbəb olub.

Bildirilib ki, vergi orqanlarından əldə edilən məlumata əsasən, 2023-cü ildə sığortaedənlərin Fond qarşısında borcu artsa da, Fondun sığortaedənlər qarşısında borcunun artım tempi (29,8 %) daha yüksək olub.

Fondun borclarının əsas hissəsi dövlət qurumlarına, o cümlədən büdcə təşkilatlarına və iri sığortaedənlərə aiddir. Əvəzində Fonda olan borcların daha böyük hissəsi qeyri-dövlət sektorunun, o cümlədən fiziki şəxslərin payına düşür.

Bületenə əsasən, Fond sosial sığorta ödənişləri üzrə artıq ödənişləri və borcları şərti aktiv və şərti öhdəlik kimi qiymətləndirdiyindən, bu göstəricilər illik maliyyə hesabatlarının izahlı qeydlərində əks olunub.

# "Ermənistanla Azərbaycan arasında müharibəni unudun" - Paşinyan

***"Ermənistanla Azərbaycan arasında yeni eskalasiya və yeni müharibə olmayacaq, sülh olacaq".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə 2024-cü il büdcəsinin icrasının müzakirəsi zamanı deyib.

Baş nazir qeyd edib ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını və güc tətbiqinin yolverilməzliyini tanıyıb: "Üstəlik, bu, təkcə siyasi deyil, həm də hüquqi müstəvidədir. İstər Ermənistan, istərsə də Azərbaycan mahiyyətcə Alma-Ata Bəyannaməsini ümumilikdə münasibətlərin tənzimlənməsi üçün əsas prinsipə çeviriblər. Və həmin bəyannamədə sovet respublikalarının sərhədlərinin toxunulmazlığı, bir-birinin ərazi bütövlüyünün tanınması, daxili işlərə qarışmamaq, güc tətbiq etməmək və güc tətbiq etməklə hədələmək əsas prinsiplərdir".

Paşinyan Ermənistan və Azərbaycanda fəaliyyət göstərən bütün qüvvələri son dərəcə məsuliyyətli olmağa, bu məntiqə birbaşa və ya dolayısı ilə zidd olan bəyanatlar verməməyə, bu məntiqi şübhə altına almamağa çağırış edib: "Rəsmi olaraq bəyan edirəm ki, Ermənistan hökuməti birbaşa və ya dolayısı ilə bu məntiqə zidd və ya bu məntiqi şübhə altına alan bəyanat və hərəkətlər etməyəcək. Mən Azərbaycan hökumətini də bu məntiqə birbaşa və ya dolayısı ilə zidd olan və ya bu məntiqi şübhə altına alan bəyanat və hərəkətlərdən çəkinməyə çağırıram".



O vurğulayıb ki, Ermənistan və Azərbaycan sülhün və dövlətlərarası münasibətlərin yaradılmasına dair saziş layihəsi üzrə razılığa gəliblər və saziş layihəsi üzrə danışıqları başa çatdırıblar: "Aprelin 15-də verdiyim hesabatda göstərdiyim kimi, sazişin imzalanmasına heç bir manеə yoxdur. Sazişin mətni razılaşdırılıb. Ermənistan-Azərbaycan eskalasiyasını və müharibəsini unudun. Biz birlikdə Cənubi Qafqazın tarixində yeni səhifə açmalıyıq".

**Ağarza Elçinoğlu**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Naxçıvan Ali Məclisində yeni təyinat

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparat rəhbərinə yeni müavin təyin edilib.***

"Unikal" xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun 2025-ci il 15 aprel tarixli sərəncamına əsasən, Fazil İbrahim oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparat rəhbərinin müavini təyin olunub.

# Toplanan cərimələrin 50 faizi hərbçilərin maaşlarına əlavə ediləcək

***"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizi hərbi qulluqçuların aylıq vəzifə (tarif) maaşlarına əlavə veriləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanun edilən dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən hərbi qulluqçuların aylıq vəzifə (tarif) maaşlarına əlavənin verilməsi üçün həmin orqanın (qurumun) hesabına köçürüləcək. Həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

# Milli Məclisin növbəti iclasının tarixi və gündəliyi açıqlandı

***Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası aprelin 22-də keçiriləcək.***

"Unikal" xəbər verir ki, iclasın gündəliyinə 12 məsələnin müzakirəsi daxil edilib. Bunlar aşağıdakılardır:



1. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatı.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
3. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
5. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
6. "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
7. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
8. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
11. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
12. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

# Orduxan da prokurorluğa çağırıldı - Barəsində həbs qərarı var

***Bəbirov Orduxan Teymurxan oğlu Baş Prokurorluğun İstintaq İdarəsinə çağırılıb.***

"Unikal"ın məlumatına görə, təqsirləndirilən şəxsə izah edilir ki, o, şəxsiyyətini təsdiq edən sənədlə birlikdə mayın 16-sı saat 12:00-da Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə ünvanında yerləşən Baş Prokurorluğun İstintaq İdarəsinin inzibati binasına gəlməlidir.

Bildirilib ki, 202006049 nömrəli cinayət işi üzrə Bəbirov Orduxan Teymurxan oğlunun Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 və 12.1, 34.2, 281.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə 07 sentyabr 2020-ci il tarixli qərar qəbul edilib. Həmin qərara əsasən, onun 19 aprel 2019-cu il tarixdən 07 avqust 2019-cu il tarixədək olan müddətdə qabaqcadan əlbir olduğu, o cümlədən qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə məhkum olunmuş şəxslərlə birlikdə "Youtube" və "Facebook" sosial media hesablarında yerləşdirdiyi videoçarxlarda Azərbaycanda hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına, Azərbaycan Respublikasının



konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn, habelə hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal şəkildə tabe olmamaqla və zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlar etməyə qəsdən açıq çağırışlar etməsinə və bu cür məzmunlu materialları yaymasına əsaslı şübhələr müəyyən edilib.

Bəbirov Orduxan Teymurxan oğlu istintaqdan qaçaraq Azərbaycan hüdudlarından kənarda gizləndiyindən ona ittiham elan edilməsi mümkün olmadığı üçün 07 sentyabr 2020-ci il tarixli qərarla barəsində axtarış elan edilib və Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 07 sentyabr 2020-ci il tarixli qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Orduxan Bəbirova izah edilir ki, ibtidai istintaqda şəxsən iştirak etmək, özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq və digər prosessual hüquqlara malikdir. Müdafiəçidən istifadə etmək istədiyi halda, müdafiəçi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməlidir.

Cinayət-Prosessual Məcəllənin 54-2.1.7-ci və 467-13.3-cü maddələrinin tələblərinə əsasən, təqsirləndirilən şəxs Orduxan Bəbirova xəbərdarlıq edilir ki, çağırışa gəlmədiyi halda Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada barəsində qiyabi icraat açıla bilər və barəsində qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi ilə nəticələnə bilər.

Qeyd edək ki, daha əvvəl Baş Prokurorluq Qurban Məmmədov, Tural Sadıqlı, Orxan Ağayev, Süleyman Süleymanlı, Elşad Abdullayev və digərlərinin İstintaq İdarəsinə çağırılması barədə də məlumat yayıb.



# "İçərişəhər"də büdcə vəsaitləri qanunsuz xərclənib - RƏSMİ

***"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və tabeliyindəki qurumlarda dövlət büdcəsi vəsaitlərinin xərclənməsi və əmlakın idarə olunması zamanı ciddi maliyyə pozuntuları aşkarlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının 2025-ci ilin I rübünə dair "Dövlət auditi" bülletenində bildirilir.

Auditin nəticələrinə əsasən, İdarə dövlət sifarişi üzrə büdcə tələbatını "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın tələblərinə əməl etmədən hesablayıb. Belə ki, bölmələr üzrə müvafiq olaraq 1 735 336 manat və 863 661 manat vəsait artıq proqnozlaşdırılaraq təqdim edilib, bununla yanaşı, İdarənin hesablaşma hesabında təsərrüfat gəlirləri üzrə 2 il üzrə müvafiq olaraq 320 551 manat və 1 405 448,02 manat qalıq vəsaitlər də büdcə vəsaitinə tələbatın hesablanmasında nəzərə alınmayıb.

Bundan başqa audit aşağıdakı pozuntuları da ortaya çıxarıb:

- 2022-ci ildə keçirilmiş 28 satınalma prosedurundan heç birinin ehtimal olunan qiymətləri təsdiqlənməyib, müqavilələr dövlət satınalmalarının vahid portalında yerləşdirilməyib;
- Xarici qonaqlar üçün aviabiletlərə 33 012 manat, otel xərclərinə isə 16 138 manat vəsait satınalma proseduru olmadan xərclənib;
- Ştatdankənar vəzifələr üçün əsas olmadan 13 645 manat əməkhaqqı ödənilib;
- Avadanlıqların texniki spesifikasiyalarında uyğunsuzluğa görə 42 174 manat artıq vəsait ödənilib;
- "Multani" və "Buxara" karvansaraylarının təmiri üçün ümumi müqavilə dəyəri 20 292 854 manat olan satınalmalar qanunsuz şəkildə həyata keçirilib, bu çərçivədə audit dövründə 13 498 516 manat xərclənib;
- Lisenziyaların uçotdan kənarda qalması nəticəsində 44 246 manat məbləğində qeyri-maddi aktivlər qeydiyyata alınmayıb.
- Hesabatda ümumilikdə 183 240 manat məbləğində vəsaitin dövlət büdcəsinə bərpası tövsiyə edilir. Bununla yanaşı, müxtəlif hüquq pozuntuları üzrə aidiyyəti qurumlara məlumatların təqdim olunması və məsul şəxslərin cavabdehliyə cəlb edilməsi təklif olunur.

# Azərbaycanla Latviya arasında memorandum təsdiq edildi

***2025-ci il yanvarın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Latviyanın Dövlət Gəlirlər Xidməti arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yardım haqqında Anlaşma Memorandumu" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Hökumətinə bildiriş göndərməlidir.

14_27 IYUI-QARA.qxd 4/17/2025 10:10 PM Page 7



# Azərbaycan və Serbiya HHQ komandanları görüşdü



***Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə ölkəmizdə səfərdə olan Serbiya Respublikası HHQ və Hava Hücumundan Müdafiə komandanı general-mayor Brane Krnyayiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, HHQ-nin Mərkəzi Komanda Məntəqəsində keçirilən görüşdə qonaqları salamlayan general-leytenant N.İslamzadə onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.

Tərəflər hər iki ölkənin HHQ-si ilə bağlı görülən işlərin cari vəziyyətini təhlil edib, perspektivdə duran məsələlər ətrafında geniş müzakirələr aparıblar.

Görüş başa çatdıqdan sonra Serbiyadan olan nümayəndə heyətinə müasir standartlara uyğun qurulmuş, modern idarəetmə sistemləri ilə təchiz olunmuş komanda məntəqəsinin fəaliyyət istiqaməti və qarşıda duran məqsədləri barədə ətraflı məlumat verilib.

Sonda qonaqları maraqlandıran suallar cavablandırılıb.

# Hesablama Palatası Kliniki Tibbi Mərkəzdə nöqsanlar aşkarladı



***Kliniki Tibbi Mərkəzdə dövlət büdcəsi vəsaitlərinin və əmlakının idarə olunmasında ciddi nöqsanlar müəyyən olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının 2025-ci ilin I rübünə dair "Dövlət auditi" bülletenində bildirilir.

Məlumata görə, audit 2022-2023-cü illəri əhatə edib. Bu müddət ərzində Mərkəzin gəlirləri 92 milyon 356 min manat, xərcləri isə 93 milyon 400 min manat təşkil edib.

Əvəzsiz verilmiş aktivlərin dəyəri 28 milyon 441 min manat, ilin əvvəlindəki qalığı isə 1 milyon 248 min manat olub.

Auditin nəticələrinə əsasən, smetalar real ehtiyaclara uyğun tərtib edilməyib, dövlətdən daha çox vəsait tələb olunub, işçilərə məzuniyyətdə və yaxud xəstəlikdə olduqları halda tam əməkhaqqı ödənilib, rezident həkimlərə qanunsuz ixtisas əlavələri, bəzi hallarda isə gecikmiş müavinətlər verilib, 2 milyon 457,1 min manat dəyərində tibbi avadanlıq və 297,1 min manat məbləğində dərman ehtiyatları istifadə edilmədən anbarlarda saxlanılıb, Dövlətdən təhkim olunmuş əmlak balansda düzgün uçota alınmayıb və yaxud artıq qeydə alınıb, Tibbi xidmətlər üzrə ödənişlərin gecikməsi nəticəsində ötən ilin I rübündə Mərkəzə heç bir ödəniş edilməyib.

Audit zamanı məlum olub ki, 2022-2023-cü illərdə Mərkəz cəmi 2 milyon 25 min 966 xidmət göstərib, bu xidmətlərin dəyəri 54 milyon 311 min manat olub. Lakin aparılmış ekspertiza nəticəsində yalnız 1 milyon 708 min 74 xidmətin və yaxud 47 milyon 209 min manatlıq ödənişin əsaslı olduğu müəyyən edilib. Beləliklə, 15,7 % xidmət və 13,1 % məbləğ üzrə əsaslandırılmamış göstəricilər qeydə alınıb.

Bundan əlavə, ekspertizadan keçmiş xidmətlərin bir hissəsinin ödənişi növbəti ilə keçirilib:

2022-ci ildə 17 milyon 357 min manatın 28,3 %-i,

2023-cü ildə 29 milyon 853 min manatın 40,1 %-i növbəti ildə ödənilib.

2024-cü ilin yanvar-mart aylarında göstərilən xidmətlər üzrə isə auditin başa çatdığı tarixə qədər heç bir vəsait ödənilməyib.

Hesabatda göstərilir ki, bu nöqsanlar dövlət vəsaitlərinin səmərəli istifadəsini ciddi şəkildə zəiflədib və funksional fəaliyyətin maliyyələşməsində gecikmələrə səbəb olub.

# Ölkədə kirayə mənzillərin qiyməti bahalaşır

## Ramil Osmanlı: "Təklif portfelinin məhdudlaşması təbii ki, yüksək tələb fonunda qiymətə təsir göstərir"

***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, Bakıda sökülləcək binaların mənzil bazarında qiymətlərə necə təsir edəcəyindən, hazırda qiymətlərin necə dəyişdiyindən, bağ evlərinə marağın necə olmasından, sənədsiz evlərdən və digər məsələlərdən danışıb.***

***-Ramil müəllim, Bakı şəhərinin bəzi ərazilərində köhnə tikililərin, yaşayış və qeyri-yaşayış obyektlərinin sökülməsi, abadlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Söküntü işləri istismar müddəti başa çatan, əsasən qəzalı vəziyyətdə olan bina və tikililəri əhatə edir. Bu işlər paytaxtın mənzil bazarında qiymətlərə necə təsir edəcək?***

-Köhnə tikililərin sökülüb yerində yenilərinin tikilməsi bahalaşmaya təsir göstərən məsələdir. Binalar, infrastruktur yeniləndikcə, yeni yaşıllıq zolaqları, yollar salındıqca, bir sözlə, infrastruktur imkanları genişlənən ərazilərdə təbii ki, qiymət artır. Nəzərə almaq lazımdır ki, həmin ərazilərin əksər hissəsi investisiya proqramları çərçivəsində dövlət-özəl əməkdaşlığı formasında mənzil tikinti kooperativləri və yaxud MMC-lər tərəfindən həyata keçirilir. Burada ilk növbədə şirkətlər investisiya yatıraraq həmin ərazini alırlar, orada yaşayan insanların köçürülməsini həyata keçirirlər, bəzi hallarda onlara aylıq kirayə haqqı ödəyirlər. Belə ki, tikinti prosesində bu məsələlər müəyyən müddət çəkir. Bunlar hamısı xərcləri artırır. Bundan sonra tikinti prosesi başlayır. Orada qanunvericiliyə uyğun olaraq xərclər meydana çıxır. Rəsmi rüsumların ödənilməsindən başlayaraq digər xərclərə qədər olan məsələlər bura aiddir. Bunlar yekun dəyərə təsir göstərir və bu da qiymət artımına gətirib çıxarır. Bakı şəhərinin 2020-2040-cı illər üzrə Baş planı təsdiqlənib. Dövlət proqramı baş plana uyğun olaraq həyata keçirilir. Dövlət proqramında söküntü prosesi iki istiqamətlidir. Birinci dövlət tərəfindən bilavasitə köçürmə prosesi həyata keçirilir. Yəni, bazar qiymətləri ödənilməklə ərazini alır. Ərazi qiymətləndirilir və köçürmə olur. İkinci isə dövlət-özəl əməkdaşlığı çərçivəsində investisiya proqramları formasında həyata keçirilir.

***-Hazırda mənzil bazarında qiymətlər necə dəyişir?***

-Aşağı seqmentdə nisbi qiymət artımı var. Yuxarı seqmentdə isə pandemiyadan sonra ilk dəfə çox ciddi stabillik, qeyri-dinamik vəziyyət müşahidə olunur. Satış həcminin əhəmiyyətli dərəcədə azalması var. Həmçinin, müraciətlərin və tələbin azalması müşahidə olunur. Hətta bəzi ərazilər üzrə yuxarı seqmentə aid olan, qiyməti təqribən 350-400 min manatdan yuxarı olan əmlaklarda müəyyən qədər azalmalar da müşahidə olunur.

***-Alıcılar daha çox yeni, yoxsa köhnə tikililərə üstünlük verirlər?***

-Fərqi yoxdur. İnsanların alıcılıq qabiliyyətinə uyğun olan istənilən formalı tikintilərə tələbat var. Sadəcə burada müəyyən hadisələrdən asılı olaraq tendensiya müəyyən qədər dəyişə bilər. Bəzi hallarda yeni tikililərə, bəzi zamanlarda isə mövsümü və digər amillərlə bağlı olaraq fərdi yaşayış evlərinə tələb çox olur. Bütün istiqamətlərdə proses oxşardır.

***-Mənzillərin qiymətinin yüksək olması bəzən alıcıların fərdi evlərə maraq göstərməsinə səbəb olur. Fərdi evlərə maraq varmı?***

-Fərdi yaşayış evlərində də vəziyyət təqribən eynidir. Daha çox sənədli tikililərə tələbin olduğu müşahidə edilir.

***-Sənədli evlərə daha çox maraq olduğunu qeyd etdiniz. Məlum olduğu kimi, ölkəmizdə xeyli sayda sənədsiz evlər var. Uzun zamandır bu məsələ müzakirə olunur. Sənədsiz evlər məsələsi nə zaman öz həllini tapa bilər?***

-Bu daha çox dövlətin qəbul edəcəyi qərardan asılı olan məsələdir. Bu istiqamətdə müzakirələr aparılıb, bu problemin həlli ilə bağlı müxtəlif təkliflər və s. dinlənilib. Hətta məsələnin hansı formada və istiqamətlər üzrə həlli baxımından da müəyyən qaydalar var. Sadəcə qərar qəbul olunmalıdır ki, ona uyğun da bu proses həyata keçirilsin.

***-Hər il yay fəsli yaxınlaşdıqca bağ evlərinə maraq artır. Hazırda bu istiqamətdə vəziyyət necədir?***

-Hələki o istiqamətdə ciddi dəyişiklik müşahidə edilmir. Düşünürəm ki, may ayının ilk ongünlüyündə bu proseslə bağlı aktivlik müşahidə olunacaq. Bağ evlərinə maraq olması mövsümə bağlı olan məsələdir. Hələ bu istiqamətdə ciddi dəyişiklik olmadığına görə indidən vəziyyətin necə, dəyişikliyin hansı formada olacağını söyləmək çətindir. Ötən il bağ evlərinə maraq var idi. Pandemiyadan sonra quru sərhədlərin bağlı olması respublikanın regionlarında, paytaxt və Abşeron ərazisində bağ sahələrinə, fərdi yaşayış evlərinə kirayə formasında tələb xeyli artıb. Sözsüz ki, xaricdən gələnlər də var. Bəzi kütləvi tədbirlər zamanı otel çatışmazlığı meydana çıxır. Bu, gündəlik kirayə məqsədləri üçün verilən mənzillərin, həm də fərdi yaşayış evlərinin qiymətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Konkret yay mövsümünə gəldikdə, bu zaman turist axını olur, tələb artır və bu da qiymətə təsir göstərir.



***-Ölkəmizdə kirayə mənzillərə tələbat çoxdur. Hazırda kirayə mənzillərin qiyməti necə dəyişir və ötən illə müqayisədə nə qədər bahalaşma var?***

-Kirayə mənzillərin qiyməti artır və bunun səbəbi bəllidir. Belə ki, kirayə mənzil bazarında ümumi mənzil bazarına uyğun olaraq yenilənmə baş verir. Yenilənmə getdikcə, qiymət artımı olur. Şəhərsalma tədbirləri çərçivəsində şəhər mərkəzinə yaxın ərazilərdə yerləşən bir və iki mərtəbəli fərdi yaşayış evlərindən ibarət olan yaşayış massivləri sökülür ki, bu da təklif portfelinin məhdudlaşmasına gətirib çıxarır. Təklif portfelinin məhdudlaşması təbii ki, yüksək tələb fonunda qiymətə təsir göstərir. Bu il qiymət artımları təqribən 20 faiz civarındadır.

***Anar Kəlbiyev***

14_27 IYUI-QARA.qxd 4/17/2025 10:10 PM Page 8



# Azərbaycanda məmurların yeni həbs dalğası başlaya bilər

## 2024-cü ildəki yarım milyonluq büdcə oğurluğunun şifrələri... - Qarşıdakı aylarda kimlər qandallanacaq?

***2024-cü ildə Hesablama Palatası həyata keçirdiyi kənar dövlət maliyyə nəzarəti tədbirləri hesabına 574,9 milyon manatlıq pozuntu aşkar edib. Bu barədə Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabatda bildirilir.***

Sənədə əsasən, bunun 113,3 milyon manatı uyğunluq elementləri üzrə dövlət büdcəsinə dəymiş zərər, 461,6 milyon manatı isə digər maliyyə pozuntuları olub.

Hesabat dövründə zərərin 83,4 milyon manatı pul və yaxud natura şəklində bərpası təmin olunub, 21,2 milyon manatı sosial xarakterli ödənişlərdən ibarət olduğu üçün onun bərpası istiqamətində birbaşa tədbir müəyyən edilməyib, bu ödənişlərin müvafiq qaydada dayandırılması ilə bağlı qərar verilib. Bundan başqa 8,7 milyon manat zərər üzrə cinayət tərkibi əlamətlərinin ehtimal olunması ilə əlaqədar olaraq müvafiq materiallar hüquq-mühafizə orqanlarına göndərilib.

Yeri gəlmişkən, Hesablama Palatası tərəfindən hansı qurumlarla bağlı materialların Baş Prokurorluğa və Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) göndərildiyi məlum olub. Bu da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin keçirilən iclasında müzakirəyə çıxarılan “Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabat”ında əksini tapıb.

Qeyd edilib ki, hesabat ilində 4 nəzarət tədbiri üzrə müvafiq materiallar kollegiyanın qərarına əsasən Azərbaycan Respublikasının Baş Prokurorluğuna və Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim edilib. Dənizkənarı Bulvar İdarəsi və tabeliyində olan qurumlar və Azərbaycan Milli Elmlər Akademiyasının İşlər İdarəsi ilə bağlı dövlət vəsaitlərinin və əmlakının idarə olunması sahəsində aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunması ilə əlaqədar materiallar Baş Prokurorluğa göndərilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda dövlət vəsaitlərinin və əmlakının idarə olunması sahəsində aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunması və Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olmuş məktub ilə əlaqədar həmin materiallar DTX-yə göndərilib.

Yuxarıda qeyd olunanlardan əlavə, 2023-cü ilin iş planına əsasən keçirilmiş 1 audit nəticəsində aşkar edilmiş bir sıra hüquqpozmalara və kənar dövlət maliyyə nəzarəti obyektinin bununla bağlı təqdim etdiyi məlumatlara qanunvericiliyə uyğun olaraq hüquqi qiymətin verilməsi ilə əlaqədar müvafiq materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilib.

Bildirilib ki, Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsindən təqdim edilmiş məlumata əsasən Hesablama Palatası tərəfindən hesabat ilində 3 auditlə bağlı göndərilmiş materiallardan 1 audit üzrə vurulmuş ziyan tam ödənilib, cinayət işinə xitam verilib. 2 audit üzrə cinayət işi başlanıb və istintaq aparıldığı qeyd edilib, bu tədbirlərdən 1-də vəsait ödənilib, 1-də isə əmlak üzərinə həbs qoyulub.



Dövlət Təhlükəsizlik Xidmətindən daxil olmuş məlumatlara əsasən, 1 audit üzrə aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, xüsusilə 2018-ci ildən sonra Azərbaycanda rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə sərtləşdirilib, nəticədə çox sayda yüksək vəzifəli şəxs (aralarında sabiq nazir və nazir müavinləri, keçmiş icra başçıları və olmaqla) elə kabinetində, cinayət başındaca saxlanılıblar, onların bir çoxu hələ də dəmir barmaqlıqlar arxasındadır.

Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatından, xüsusilə də, yüz milyonlarla manatlıq dövlət vəsaitinin hələ də bir çoxları tərəfindən mənimsəmə predmetinə çevrildiyini göstərən maliyyə pozuntuları aşkarlanmasından iki nəticə ortaya çıxır.

Bir: bəzi məmurlar hələ də rüşvət və korrupsiya səbəbindən həbs olunan vəzifəli şəxslərin başına gələnlərdən lazımi nəticə çıxarmayıblar, onların aqibətindən, necə deyərlər, “gözü çıxmış qardaşlarından” dərs almayıblar. Bir sıra vəzifəlilərin hələ də büdcə pullarına yeyinti mənbəyi kimi baxdığı Hesablama Palatasının ötən ilki fəaliyyəti ilə bağlı hesabatından aydın şəkildə görünür.

İki: bir halda ki, bəzi məmurlar “köhnə hamam, köhnə tas” prinsipi ilə işləyir, dövlət vəsaitlərindən təyinatı üzrə və effektiv istifadə etmək əvəzinə onları havay sovurmaq, cibişdanlarına yönəltmək yolu tuturlar, deməli, biz qarşıda hüquq-mühafizə orqanlarının xətti ilə yeni anti-korrupsiya tədbirlərinin, nəticə etibarilə də yeni məmur həbslərinin şahidi ola bilərik. Elə Hesablama Palatasının ötən ilki fəaliyyətinə dair hesabatda yer alan ciddi maliyyə pozuntularına bir az da bu kontekstdən baxmaqda fayda var.

Bir sözlə, qarşıdakı aylarda aralarında yüksək postlar tutan şəxslərin də saxlanılması ilə müşahidə olunan anti-korrupsiya əməliyyatları barədə xəbərlər oxusaq, kimsə buna təəccüblənməməlidir. Aydın görünür ki, müəyyən vəzifə sahibləri büdcə pullarını talamaqdan xoşluqla əl çəkmək fikrində deyillər, özü də eyni əməllərə görə xeyli məmur qandallanaraq həbs atılsa da...

***Sənan Mirzə***

# Nazir birinci sinifə qəbulla bağlı əmr imzaladı



***Elm və təhsil naziri Emin Əmrullayev 2025/2026-cı tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbulunun aparılması barədə əmr imzalayıb.***

“Unikal” ”Report”a istinadən məlumat verir ki, birinci sinfə şagird qəbulu valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatı aparılmaqla elektron sistem vasitəsilə həyata keçiriləcək.

Onlayn qeydiyyat mayın 1-dən, məktəb seçimi prosesinə Azərbaycan bölməsi üzrə mayın 6-dan başlanılacaq.

Qeyd olunub ki, yeni tədris ili üzrə dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə şagird qəbulu üçün uşaqların həmin dil üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi məqsədilə peşəkar və səriştəli müəllimlərdən ibarət müsahibə və apellyasiya komissiyaları təşkil ediləcək.

Həmçinin şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün müsahibələr keçiriləcək, şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün hazırlanmış meyarlar təsdiq ediləcək.

Əmrin icrasına nəzarət nazir müavini Həsən Həsənliyə həvalə edilib.

# Güzəştli şərtlərlə yaşa görə müavinət necə ödənilir?



***“Əmək pensiyaları” haqqında qanuna edilən yeni dəyişikliklərə əsasən, güzəştli şərtlər ilə pensiyaya çıxan bir sıra vətəndaşlarımızın, o cümlədən çox uşaqlı anaların güzəşt müddətində pensiyaları dövlət büdcəsindən ödəniləcək.***

”Unikal” xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu dəyişikliklər ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

”Bu dəyişiklik ilə əlaqədar bizə ünvanlanan sualların bir qismi yaşa görə müavinət alanların güzəşt hüququ və vəsaitin ödənilməsi ilə bağlıdır. Qanunvericiliyə əsasən, əmək pensiyası almaq hüququ olmayan vətəndaşlarımız da güzəştli şərtlərlə daha tez müavinət almaq imkanına malik olurlar. Belə ki, qanunvericiliyə əsasən, əmək pensiyası almaq üçün ya minimum pensiya kapitalını toplamaq və ya 25 il iş təcrübəsi tələb olunur. Hazırda Azərbaycanda pensiya amnistiyası tətbiq olunduğu üçün 2018-ci il iyulun 1-dək hesabında hətta 1 manat yığımı olanlar da pensiya almaq hüququna malikdirlər. Amma bu şərtlərin heç biri olmadığı halda yaşa görə müavinət ödənilir”.

Deputat qeyd edib ki, ”Sosial müavinətlər haqqında” qanuna əsasən, beş və daha çox uşağı olan qadınların, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə, yaş həddi 5 il azaldılmaqla yaşa görə müavinət təyin olunur: ”Yəni, həmin analar 59 yaşında sözügedən müavinəti almağa başlayırlar. Eyni zamanda, əlilliyi müəyyən edilmiş uşağı olan qadınların, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə, müavinəti almaq yaş həddi 5 il azaldılır. Göründüyü kimi, əmək pensiyaları hüququ kimi güzəştli şərtlər ilə yaşa görə müavinət də 5 il daha tez təyin olur. Yəni, əgər bu kateqoriya üzrə qadın bu hüququdan istifadə edirsə, o zaman 59, kişiyə şamil olunursa o halda 60 yaşında müavinəti ala bilər. Hazırda bu müavinət hər hansı dövlət qurumuna müraciət edilmədən, heç bir sənəd təqdim edilmədən proaktiv qaydada təyin edilir. Eyni zamanda, sosial müavinətlər onu almaq hüququ olduğu təqdirdə ən çoxu müraciət edildiyi tarixdən əvvəlki üç il üçün ödənilir”.

14_27 IYUI-QARA.qxd 4/17/2025 10:10 PM Page 9






# Mərkəzi Bank "PulPal"a məcburi göstəriş verdi

***Azərbaycan Mərkəzi Bankı (AMB) "PulPal" MMC elektron pul təşkilatına məcburi göstəriş verib.***

"Unikal" bu barədə AMB-yə istinadən xəbər verir.

Məlumata görə, qurumun həyata keçirdiyi cari nəzarət prosesləri çərçivəsində "PulPal"da plandankənar, yerində yoxlama zamanı yoxlayıcı lazımi texniki imkanlarla təmin edilməyib, aparılmış əməliyyatlar haqqında dolğun məlumatlar təqdim olunmayıb. Odur ki, "Mərkəzi Bank haqqında" qanunun 48.2.4-cü və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun 63.1-ci maddələrinə əsasən "PulPal"a münasibətdə təshih tədbirləri tətbiq edilib.

# Yağışlı havaya görə təcili tibbi yardıma 60-dan çox müraciət qeydə alınıb

***Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə Şabran, Siyəzən və Ağsu rayonlarından güclü yağış yağması səbəbindən yaranan çətinliklər fonunda vətəndaşların müraciətləri qeydə alınıb.***

Bu barədə "Unikal"a TƏBİB-dən bildirilib. Belə ki, Siyəzən rayonunun Həmiyə kəndi ərazisindən daxil olan çağırış əsasında Siyəzən Təcili Tibbi Yardım Stansiyasının 3 briqadası hadisə yerinə cəlb olunub. Güclü yağış səbəbindən yaranan çətinliklər fonunda sel təhlükəsi ilə üzləşən təxminən 57 nəfərə yerində ilkin tibbi yardım göstərilib. Həmin şəxslərdən daha ixtisaslı tibbi yardıma ehtiyacı olanlar təxliyə edilərək Siyəzən Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə yerləşdirilib. Hazırda 26 nəfərin müalicəsi stasionar olaraq davam etdirilir.

Şabran rayonu ərazisindən 1970-ci il təvəllüdlü kişi Şabran Rayon Mərkəzi Xəstəxanasına təxliyə olunub. Təcili tibbi yardım şöbəsinə yerləşdirilən şəxsə zəruri tibbi yardımlar göstərilib və ambulator müalicə üçün evə buraxılıb.

Ağsu rayonunda isə selin ekskavatoru aparması nəticəsində xəsarət alan üç kişi Şamaxı Rayon Mərkəzi Xəstəxanasına təxliyə olunub. Onlardan iki nəfərin müalicəsi Terapiya şöbəsində davam etdirilir, vəziyyətləri stabildir. Digər şəxsin vəziyyəti isə qənaətbəxş qiymətləndirilib və ambulator müalicə üçün evə buraxılıb. Qeyd edək ki, sözügedən hadisə nəticəsində bir kişinin həkiməqədər ölüm faktı qeydə alınıb.

# I rübdə Azərbaycan 300 min tona yaxın buğda idxal edib

***2025-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana 62 milyon 245 min ABŞ dolları dəyərində 287 min 995 ton buğda idxal edilib.***

"APA-Economics" Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu göstərici 2024-cü ilin I rübü ilə müqayisədə həcm baxımından 35.9% və ya 76 min ton, məbləğ baxımından isə 29.5% və ya 14.2 milyon dollar çoxdur.

Hesabat dövründə buğda idxalı Azərbaycanın ümumi idxalının 1.1%-nə bərabər olub.

Qeyd edək ki, bu dövründə idxal edilmiş buğdanın 1 tonunun orta qiyməti, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4.7% azalaraq 367.4 manat təşkil edib.

# Səhiyyə Nazirliyinin keçmiş "qara qutu"sunun yenidən "ağ günləri" başlayıb

## Sabiq nazir müavininə məxsus olduğu deyilən şirkətə 200 minlik sifariş... - Elsevər Ağayev qayıdır?

***Səhiyyə Nazirliyinin (SN) tabeliyindəki Səhiyyənin Təminatı Mərkəzi "Sem-AZ" şirkəti ilə satınalma müqaviləsi bağlayacaq.***




Valyuta.az xəbər verir ki, şirkət Mərkəzin laboratoriya cihazlarının ehtiyat hissələrinin satın alınması ilə bağlı keçirdiyi tenderin qalibi seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 197 166,2 manatdır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "SEM-AZ" MMC 15 may 2009-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, Akademik Mustafa Topçubaşov küçəsi, ev 21, mənzil 37-də yerləşir. MMC-nin qanuni təmsilçisi Məmmədov Anar Fikrət oğludur. Anar Məmmədov həm də "SEM-AZ Laboratoriya Cihazları" MMC-nin qanuni təmsilçisidir. Onun barəsində açıq mənbələrdə heç bir məlumat yoxdur.

Mediada gedən məlumatlara görə, şirkət səhiyyə nazirinin keçmiş müavini Elsevər Ağayevə bağlıdır.

Xatırladaq ki, bu il 60 yaşı tamam olan 1997-ci ildə Səhiyyə Nazirliyinin "Dərman və Tibbi Texnika" İTB-nin baş direktoru, ardınca eyni nazirliyin "Əczaçılıq və Tibb Sənayesi" EİB baş direktoru vəzifəsinə təyin olunub.

1999-cu ildə səhiyyə nazirinin müavini vəzifəsinə gətirilən Ağayev nə az, nə çox, 23 il bu vəzifəni tutub.

2022-ci ildə həmin postu itirən Ağayevin işsiz qalması bəziləri üçün gözlənilməz olub. Çünki ona yaxın dairələr Elsevər müəllimin karyera yüksəlişinin səhiyyə naziri təyinatınadək davam edəcəyini düşünür, hətta bunu dar çevrələrdə dilə gətirirdilər.

Lakin əksəriyyət üçün sabiq nazir müavininin bu vəzifədən azad edilməsi sürpriz deyildi. Həmin postda oturduğu uzun müddət ərzində kifayət qədər varlanan, oliqarxlaşan Ağayev xüsusilə ölkənin dərman və aptek bazarında həlledici söz sahibinə çevrilmişdi. Ona məxsus bir neçə əczaçılıq şirkətinin olduğu uzun müddətdir yerli KİV-də yazılır. Belə iddialar bu günədək təkzib edilməyib.

İndi isə maraqlı burasıdır ki, Elsevər müəllimə məxsus şirkət yenidən Səhiyyə Nazirliyinin tenderlərinin qalibi olmağa başlayıb. Bu isə onun 23 il yüksək vəzifə tutduğu nazirlikdə hələ də müəyyən təsir gücünə malik olduğunu göstərir. Düzdür, iki il əvvəl həmin şirkət tamamilə başqa bir dövlət qurumunun (AQTA) maliyyə dəyəri 2 265 922,14 AZN olan tenderini udmuşdu. Lakin Ağayevin bir müddətdir Səhiyyə Nazirliyi tərəfindən keçirilən tenderlərdən kənarda qaldığına dair iddialar vardı. İndi isə belə görünür, bir zamanlar adı çəkilən nazirlikdə hətta o vaxtkı nazir Oqtay Şirəliyevdən belə güclü fiqur, az qala, bu qurumun "qara qutusu" kimi təqdim edilən Ağayev yenidən dirçəlməyə başlayıb. Əlbəttə ki, söhbət onun SN daxilindəki mövqelərini bərpa etmək cəhdlərindən gedir. "Cəhdlərindən gedir" deyirik, çünki Səhiyyənin Təminatı Mərkəzindən öncə Səhiyyə Nazirliyinin tabeliyindəki başqa bir qurum - "Analitik Ekspertiza Mərkəzi" Publik Hüquqi Şəxsi laboratoriya reagentlərinin və ləvazimatlarının satın alınması üzrə elan etdiyi tenderə yekun vurmuş, həmin tenderin qalibi də "SEM-AZ" MMC olmuşdu.

Belə ki, "Analitik Ekspertiza Mərkəzi" ilə MMC arasında bağlanan müqaviləyə əsasən laboratoriya reagentlərinin və ləvazimatlarının satın alınmasına 278.389.14 AZN xərclənəcəkdi.

Yeri gəlmişkən, vəzifəsindən azad edilməsinin ardınca Qaynarinfo.az-a danışan keçmiş nazir müavini kefinin yaxşı olduğunu bildirmişdi: "Kefim əladır. Bir az işlərim var. Vəzifəmdən azad olunmağımla bağlı hansısa şərh vermək istəmirəm. Sonra danışarıq".

Həmin vaxt Ağayevin bu açıqlamasında iki məqama diqqət çəkmişdi. Onun kefinin yaxşı olması, fəaliyyətinin təftiş ediləcəyi təqdirdə ortaya ciddi pozuntuların çıxa, nəticədə də hüquqi məsuliyyətə cəlb oluna biləcəyi barədə çoxdankı iddialarla əsaslandırılmışdı. Qeyd olunurdu ki, oliqarxlaşmış bir çox məmurların həbsə atıldığı bir vaxtda sabiq nazir müavini sadəcə vəzifədən azad olunmaqla canını qurtardığı üçün məmnundur. Baxmayaraq ki, 23 il boyunca Səhiyyə Nazirliyində yetərincə yüksək post tutmuş və gözünü növbəti mərhələdə nazir vəzifəsinə dikmiş Ağayevin müəyyən qədər xəyal qırıqlığı yaşadığı da istisna olunmurdu.

"Bir az işlərim var" deməklə isə Elsevər müəllimin bundan sonra bütün diqqətini şəxsi biznesinə yönəldəcəyinə işarə vurduğu bildirilirdi.

***Toğrul Əliyev***

# Gələn il Ağdama 10 min əhali köçürüləcək - Emin Hüseynov



***Hazırda Ağdam şəhərində ikinci məhəllənin tikintisi aparılır. Buraya 66 bina üzrə 1267 ailənin köçürülməsi nəzərdə tutulub. Bu, təxminən oktyabr-noyabr aylarına təsadüf edəcək.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

"Bu ilin sonunadək 5 min, gələn il 10 min, ümumilikdə isə 20-25 min əhalinin Ağdama köçürülməsi nəzərdə tutulub. Füzulidə ikinci və üçüncü yaşayış məhəllələrinin layihələndirilməsi yekunlaşdırılmaq üzrədir. Hesab edirəm ki, layihələndirmə bu ilin sonuna doğru - payız aylarında başa çatacaq. Bundan sonra isə tikinti işlərinə start veriləcək".

# Sabiq nazir müavininə böyük şok...

## İntiqam Babayev nəyə ümid edirdi, qismətinə nə düşdü?



***Yola salmaq üzrə olduğumuz həftə məlumat yayıldı ki, ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri işdən çıxarılıb.***

Söhbət İntiqam Babayevin öz ərizəsi ilə tutduğu vəzifədən azad edilməsindən gedir. Bu barədə qurumun yeni sədri Rüfət Mahmud müvafiq əmr imzalayıb.

”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mətbuat xidmətindən məlumatı təsdiqləyiblər.

Qeyd edək ki, İntiqam Babayev 2023-cü ilin yanvar ayından sözügedən vəzifəyə gətirilib. Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş sektorunun müdiri olub. İ. Babayev 21 il gənclər və idman nazirinin müavini vəzifəsində çalışıb.

Xatırladaq ki, bu ilin fevral ayında Rüfət Nahid oğlu Mahmud ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri təyin olunub.

Bu təyinatın ardından “Unikal” qəzeti olaraq yazmışdıq ki, İ.Babayevin arzusu puça çıxıb. Çünki sabiq nazir müavini əslində İdarə Heyətinin sədri vəzifəsinə özünün gətiriləcəyinə dair xəyallar qururdu. Lakin İntiqam müəllimin nazir müavini olarkən göstərdiyi performans onun bir daha yüksək postlara gətirilmə ehtimalını minimuma endirir.

Məsələ burasındadır ki, nazir müavini vəzifəsindən uzaqlaşdırılmasının ardınca onun barəsində yerli KİV-də kifayət qədər ciddi iddialar yer almışdı. Həmin iddialarda Gənclər və İdman Nazirliyində ayrı-ayrı vaxtlarda tenderlər çərçivəsində külli miqdarda vəsaitlərin müxtəlif MMC-lərə köçürülməklə “silindiyi” deyilir, həmin vəsaitlərin köçürüldüyü MMC-lərin sahiblərinin bundan xəbərsiz olduqları, kiçik miqdarlarda vəsait müqabilində müxtəlif sənədlərə imza atdırılaraq aldadıldıqları deyilir, prosesin isə məhz İntiqam Babayevin nəzarəti altında reallaşdığı deyilirdi. Belə ki, sabiq nazir müavini bu postda həm də QHT layihələrini kurasiya və koordinasiya edirdi.

Ümumiyyətlə isə nazir müavini işlədiyi dövrlərdə mətbuatda İntiqam Babayevin ünvanına müxtəlif yollarla dövlət vəsaitlərini talamaq, gənclər üçün nəzərdə tutulan dövlət mükafatlarını layiq olmayan şəxslərə vermək, ayrı-ayrı gənclər təşkilatlarının fəaliyyətini şəxsi maraqları əsasında iflic etmək kimi ağır ittihamlar səslənib. Hətta bəzi media orqanlarında müvafiq dövlət qurumlarının keçmiş nazir müavini ilə bağlı gənclər sektorunu idarə etdiyi dövrü araşdırdığına, bu araşdırmaların nəticəsi olaraq barəsində cinayət işi açıla biləcəyinə dair xəbərlər də yayılmışdı. Lakin maraqlı burasıdır ki, Babayev bu cür iddia və ittihamların heç birini heç bir zaman cavablandırmaq ehtiyacı duymayıb. Ya həmin iddiaları ciddiyə almadığından, ya da veriləcək cavabı olmadığından... Ancaq belə görünür ki, o, hər bir halda məşhur kəlamı unudub: “Susmaq razılıq əlamətidir”.

Onu da deyək ki, hazırda 51 yaşında olan sabiq nazir müavini bu postu itirdikdən sonra - 2022-ci ilin mart ayından 2022-ci ilin dekabr ayınadək Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş sektorunun müdiri, 2022-ci ilin dekabr ayının 20-dən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbərinin müavini vəzifələrində çalışıb, 2023-cü ilin aprel ayından 2023-cü ilin may ayınadək İçərişəhər Qoruq İdarəsinin Aparat rəhbərinin vəzifələrini müvəqqəti icra edib. Sonuncu tarixdən etibarən də Aparat rəhbəri postunu tutub.

“İntiqam müəllim bu vəzifəyə özünün yüksək karyerasını bərpa etmək istiqamətində bir mərhələ kimi baxırdı. Xüsusilə idarənin əvvəlki rəhbəri Şahin Seyidzadə VII çağırış Milli Məclisə seçkilərdə deputat seçilməsi səbəbindən Prezidentin Sərəncamı ilə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilncə Babayev bu posta təyinat almağı çox istəyirdi, müəyyən səylər də göstərmişdi. Lakin Rüfət Mahmudun sədr gətirilməsi ilə onun arzusu boşa çıxdı. Bu da azmış kimi ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri postunu da itirdi” - sabiq nazir müavininə yaxın mənbələr bildirirlər.

Belə görünür ki, nazir müavini olarkən haqqında yayılan və özü tərəfindən heç vaxt təkzib edilməyən saysız-hesabsız korrupsiya ittihamları İntiqam Babayevin bir daha yüksək postlara təyinat alma ehtimalının üstündən qalın, eyni zamanda qara xətt çəkib. Hərçənd, o, nazir müavini postunu itirdikdən sonra xarici ölkələrdən birinə səfir getməyi, ya da rayonlardan birinə icra başçısı göndərilməyi də çox istəyirdi.

Lakin necə deyərlər, “sən saydığını say...”.

***Sənan Mirzə***

# Daha 3 itkin şəhid dəfn ediləcək



***Daha 3 itkin şəhid dəfn ediləcək.***

”Unikal” xəbər verir ki, bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb.

Məlumata görə, Hüseynov Mübariz Sabəddin oğlu, Mirzəliyev Ələsgər Fərzalı oğlu, Mehdiyev Münasib Namaz oğlunun qalıqları aprelin 18-də dəfn olunacaq.

# Buraxılış imtahanının nəticəsi açıqlandı



***Tam (11 illik) orta təhsil səviyyəsi üzrə martın 9-da keçirilən buraxılış imtahanının nəticələri elan olunub.***

”Unikal” Dövlət İmtahan Mərkəzinə istinadən xəbər verir ki, İmtahan iştirakçıları arasında 20 nəfər 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.

Şagirdlər imtahan nəticələri haqqında məlumatı (hər fənn üzrə ümumi balı), həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə “iş nömrəsi”ni (8 rəqəmli şagird kodunu) 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

Bu imtahanda iştirakı nəzərdə tutulan 58 min 732 nəfərdən 407 nəfər imtahana gəlməyib. İmtahan qaydalarını pozduğu üçün 11 nəfərin nəticəsi ləğv olunub.

İmtahan iştirakçıları arasında 20 nəfər 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM-də Apellyasiya Komissiyası fəaliyyət göstərəcək. Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər 21 aprel saat 10:00-dan 23 aprel saat 17:00?dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər.

Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apellyasiya Komissiyasına müraciət edə bilməyəcəklər. Elektron ərizədə haqqında müraciət edilən tapşırığın nömrəsi seçilməli, onunla bağlı müraciətin məzmunu yazılmalı və meyarın hansı bəndinə uyğun hesab edildiyi göstərilməlidir. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir və həmin müraciət araşdırılmır.

# "Naxçıvana maneəsiz keçid məsələsi hələ də həllini tapmayıb" - Ceyhun Bayramov

***Sloveniyalı həmkarıma Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa edəndən sonra regionda yaranan yeni reallıqlar barədə məlumat verdim.***

”Unikal” xəbər verir ki, bunu Sloveniya Respublikasının xarici işlər naziri Tanya Fayonla birgə mətbuat konfransında xarici işlər naziri Ceyhun Bayramov deyib.

Nazir bildirib ki, mart ayında sülh sazişinin mətni üzrə danışıqların yekunlaşması, Azərbaycanın prosesin tam yekunlaşdırılması üçün olan legitim gözləntilərini Ermənistanla bir daha müzakirə etmək şansı olub: “Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan götürülməsi və Minsk qrupunun ləğvini qeyd etdim. Delimitasiya prosesi aparılır, hələ də kommunikasiyaların açılması məsələsi qalır. Naxçıvanla maneəsiz keçidin hələ də təmin edilməməsi barədə də fikir mübadiləsi aparıldı. Azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri, orada gedən proseslərə ən böyük təhdid olan mina təhlükəsi də müzakirə edildi”.

# ADNSU-ya yeni mətbuat katibi təyin olundu

***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə (ADNSU) yeni mətbuat katibi təyin olunub.***

Xülya Sabirli ADNSU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, o daha əvvəl Fransız-Azərbaycan Universitetinin (UFAZ) mətbuat katibi vəzifəsində çalışıb.




# AZAL may ayında bir sıra istiqamətlərdə uçuşların sayını artırır

***Azərbaycanın milli aviadaşıyıcısı AZAL sərnişinlərə daha geniş səyahət imkanları təqdim etməyə davam edir. May ayından etibarən Bakıdan Antalya, Trabzon, Astana, Milan və Kişineu istiqamətlərində uçuşların tezliyi artırılacaq.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Sərnişinlərə daha çox seçim təklif etmək məqsədilə Türkiyənin Antalya və Trabzon istiqamətlərində reyslərin sayı çoxaldılır. Belə ki, mayın 1-dən Antalya marşrutu üzrə 4 reys əlavə olunacaq və bu istiqamətdə uçuşlar hər gün yerinə yetiriləcək. Trabzon istiqamətində isə mayın 12-dən reyslərin sayı həftədə 5 dəfəyə çatdırılacaq.

Bundan əlavə, 12 may tarixindən etibarən Bakı-Astana-Bakı marşrutu üzrə daha bir reys əlavə olunacaq və həftəlik uçuşların sayı 4-ə yüksəldiləcək.

Yay uçuş cədvəli çərçivəsində AZAL tərəfindən Avropa şəhərlərinə həyata keçirilən reyslərin tezliyi də artırılır. Belə ki, 1 aprel tarixindən Bakı-Milan-Bakı marşrutu üzrə reyslər həftədə 6 dəfə həyata keçirilir, 13 may tarixindən etibarən isə bu istiqamətdə gündəlik uçuşlar yerinə yetiriləcək.

Artan tələbatı nəzərə alaraq 2025-ci ilin aprel ayından Bakı-Kişineu-Bakı marşrutu üzrə reyslərin sayı həftədə 5 dəfəyə çatdırılıb. Mayın əvvəlindən bu istiqamətdə uçuşlar həftədə 6 dəfə, 12 may tarixindən isə gündəlik həyata keçiriləcək.

Daha çox uçuş, daha rahat və xoş səyahət - AZAL ilə dünyanı kəşf edin!

Aviabiletləri rəsmi www.azal.az saytından, aviaşirkətin mobil tətbiqindən, həmçinin AZAL-ın kassalarından və akkreditə olunmuş agentliklərdən əldə edə bilərsiniz.

# 3 ayda Azərbaycana 23 minə yaxın avtomobil idxal edilib



***2025-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana ümumilikdə 400 milyon 252 min dollar dəyərində 22 936 ədəd avtomobil idxal olunub.***

Bu barədə "Unikal"a Dövlət Gömrük Komitəsindən bildirilib.

2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə ölkəyə idxal olunan avtomobillərin sayı 17.2% və ya 3 365 ədəd, dəyəri isə 10.9% və ya 39.2 milyon dollar artıb. 2024-cü ilin müvafiq dövründə Azərbaycana 361 milyon 23 min dollar dəyərində 19571 ədəd avtomobil idxal edilib.

Qeyd edək ki, hesabat dövründə idxal olunan yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 48% və ya 402 ədəd avtomobil azalaraq 428 ədəd təşkil edib.

# Yasamalda silah-sursat aşkarlandı

***Polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silahların əməliyyat yolu ilə aşkarlanması və könüllü təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, polis əməkdaşlarının keçirdikləri növbəti tədbir nəticəsində Yasamal rayonu ərazisində 1 tapança, 1 patron darağı və 6 patron tapılaraq götürülüb.

Araşdırma aparılır.

# ARTİ ilə bağlı narazılıq yaranıb

## İnformatika və riyaziyyat fənləri üzrə Respublika Fənn Olimpiadası ətrafında yaranmış qalmaqal yeni polemikaya səbəb olub



***Bu günlərdə Azərbaycan təhsilində növbəti qalmaqal baş verib. "Fevralın 23-də Azərbaycan Respublikası Təhsil İnstitutu (ARTİ) tərəfindən təşkil olunan riyaziyyat fənni üzrə Respublika Fənn Olimpiadalarının Respublika mərhələsinin yuxarı yaş qrupu üzrə yarımfinal turu zamanı olimpiada iştirakçılarına təqdim olunan 30 tapşırıqdan 7-si səhv, 2-si isə 2024-2025-ci tədris ili üçün Riyaziyyat fənni üzrə Respublika Fənn Olimpiadalarının proqramına daxil edilməyən mövzulardan tərtib olunub. Bununla da 30 tapşırıqdan 9-u səhv olub". Bu iddia ilə riyaziyyat elmləri doktoru, professor Rəşid Əliyev çıxış edib ("Bakupost").***

O bildirib ki, ARTİ tərəfindən təşkil olunan bu olimpiadalarda iştirakçıların apellyasiya hüququ da yoxdur.

Bundan başqa, Rəşid Əliyev qeyd edib ki, çoxsaylı müraciətlərdən sonra Olimpiadanın Təşkilat Komitəsi 4 tapşırığın səhv olduğunu etiraf edərək, bu tapşırıqlar üzrə olimpiada iştirakçılarının hər birinin cavabını doğru qəbul edib.

Məsələ ilə bağlı Təhsil İnstitutundan belə cavab verilib: "9 sualın səhvliyi ilə bağlı iddia əsassızdır. Dörd sualda kiçik texniki problem olub və bütün iştirakçıların lehinə həll olunub".

Professor Rəşid Əliyev isə ARTİ-nin təkzibinə kinayə ilə yanaşıb: "Təhsil İnstitutunun açıqlamasında qeyd olunur ki, "doqquz sualda səhv olduğu ilə bağlı iddialar əsassızdır. Dörd sualda səhv olub və həmin suallların cavabı bütün iştirakçıların xeyrinə həll olunub". "Facebook"da izləyicilərdən biri şərh bölümündə qeyd etmişdi ki, "gələcəkdə 30 sualdan 30-u da səhv olacaq. Üstəlik həmin səhvləri heç aşkar edən də tapılmayacaq". Deyəsən bu proses başlayıb. Ən azından artıq Təhsil İnstitutu səhv və düz tapşırıqları ayırd edə bilmir".

Professor 9 səhv məsələsini aydınlaşdırmaq üçün təklif də irəli sürüb: "Aydınlıq məqsədi ilə 23 fevral 2025-ci il tarixdə ARTİ tərəfindən təşkil olunan riyaziyyat fənni üzrə RFO Respublika mərhələsinin yuxarı yaş qrupu üzrə yarımfinal turunda iştirakçılara təqdim olunmuş səhv tapşırıqların izahını qeyd edirəm (mötərizədə tapşırığın olimpiadada təqdim olunma nömrəsi qeyd olunub) və təklif edirəm ki, Təhsil İnstitutu inanılmış, təcrübəli müəllimlərdən ibarət Komissiya yaradıb mənim də iştirakımla neçə tapşırığın səhv olduğunu araşdırsın".

Lakin maraqlıdır ki, ARTİ hələlik bu təklifə münasibət bildirməyib.

Vurğulayaq ki, hazırda ARTİ-yə Elnur Əliyev rəhbərlik edir. O, İnstitutun direktor səlahiyyətlərinin icraçısıdır.

ARTİ-nin sonuncu direktoru Rüfət Əzizov bu vəzifəyə 2021-ci ildə təyinat almışdı. İki il sonra isə Sumqayıt Dövlət Universitetinin rektoru təyin edildiyi üçün o, direktor vəzifəsindən azad olundu. R.Əzizov hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorudur.

R.Əzizovdan sonra ARTİ-nin direktor səlahiyyətlərini Elnur Əliyev müvəqqəti icra edir.

Qeyd edək ki, Elnur Əliyev həm də Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri vəzifəsində çalışır.

Xatırladaq ki, ARTİ Azərbaycan Respublikası Prezidentinin 14 noyabr 2016-cı il tarixli 1107 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun bazasında yaradılıb. İnstitut təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etməklə, fasiləsiz fundamental və tətbiqi tədqiqatlar həyata keçirən, təhsilin bütün pillələri üçün məzmun hazırlayan, təhsil sistemində tədris-metodiki ehtiyacların müəyyənləşdirilməsi və ödənilməsi sahəsini, təhsil siyasəti innovasiyalarının tədqiqi, yaradılması və tətbiqi ilə bağlı nəzəri, praktiki məsələləri araşdıran elmi-tədqiqat müəssisəsidir.

İnstitut öz işini bir çox istiqamətlər - təhsilin nəzəri və təcrübi məsələləri ilə bağlı, o cümlədən, təhsil siyasəti üzrə prioritetlərin müəyyənləşdirilməsi və strateji planlaşdırma istiqamətləri üzrə tədqiqatların aparılması; təhsil müəssisələrində keyfiyyət göstəricilərinin artırılması, o cümlədən, təhsil imkanlarının genişləndirilməsi və təhsilalanlar üçün bərabər imkanların yaradılması məqsədilə tədqiqatların aparılması; elmi-pedaqoji tədqiqatlar və elmi-pedaqoji kadr hazırlığı; müxtəlif təhsil pillələri üzrə təhsilin məzmun və qiymətləndirmə standartlarının, nümunəvi (variativ) kurikulumların və təhsilin keyfiyyət standartlarının hazırlanması; müxtəlif təhsil müəssisələrində təhsilin inklüzivliyi, psixoloji xidmətin təşkil edilməsi, istedadlı uşaqlarla işin düzgün qurulması (o cümlədən, olimpiadalara hazırlıq) və tədris resurslarından istifadə sahəsində metodik tövsiyələrin hazırlanması; milli və beynəlxalq qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsi; təhsilin bütün pillə və səviyyələri ilə bağlı pedaqoji savadlılığı həyata keçirmək məqsədilə nəşriyyat, çap (metodik vəsait, metodik tövsiyə və s.) və maarifləndirmə (konfrans, seminar, dəyirmi masa, müzakirə, təlim kursları və s.) işlərinin aparılması üzrə tənzimləyir.

ARTİ-nin tabeliyində Metodik dəstək və peşəkar inkişaf mərkəzi, İnsan resursları mərkəzi, Elmi pedaqoji tədqiqatları mərkəzi, Təhsil texnologiyaları mərkəzi və s. fəaliyyət göstərir.

*Sənan Mirzə*

14_27 IYUl-QARA.qxd 4/17/2025 10:10 PM Page 12



## 5.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Elm müəssisələrinin işi yenidən qurulur!

## Kamran Əsədov: "Elmi-tədqiqat institutlarının birləşdirilərək publik hüquqi şəxslər formasında yenidən təşkili son illər Azərbaycan elm sistemində həyata keçirilən ən əhəmiyyətli struktur islahatlardan biridir"

***Azərbaycanda elmin inkişafı dövlətin prioritet istiqamətlərindəndir. Ölkəmizdə elmlə məşğul olan təhsil müəssisələrinin fəaliyyətinin gücləndirilməsi istiqamətində son illər çox işlər görülüb.***

Bu günlərdə Elm və Təhsil Nazirliyinin tabeliyindəki bəzi qurumlar publik hüquqi şəxsə çevrilib. Prezident İlham Əliyev Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Dövlət başçısının sərəncamına əsasən, Nazirlər Kabineti 2025-ci ilin sonunadək mərhələli şəkildə aşağıdakı tədbirlərin görülməsini təmin etməli və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Nazirlər Kabineti, o cümlədən Elm və Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində aşağıdakı publik hüquqi şəxslərin yaradılmasını:

Geologiya və Geofizika İnstitutunun və Neft və Qaz İnstitutunun əsasında Geologiya İnstitutunun;

Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun və Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əsasında Coğrafiya İnstitutunun;

Fizika İnstitutunun və Radiasiya Problemləri İnstitutunun əsasında Fizika İnstitutunun;

Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun və Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun əsasında Kimya İnstitutunun;

İdarəetmə Sistemləri İnstitutunun və Riyaziyyat və Mexanika İnstitutunun əsasında Riyaziyyat İnstitutunun;

Botanika İnstitutunun və Dendrologiya İnstitutunun əsasında Botanika İnstitutunun;

Zoologiya İnstitutunun və Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun əsasında Canlı Sistemlərin Tədqiqi İnstitutunun;

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun, Mikrobiologiya İnstitutunun və Biofizika İnstitutunun əsasında Molekulyar Biologiya İnstitutunun;

müasir infrastruktura və beynəlxalq standartlara uyğun elmi tədqiqat və təcrübi istehsalat bazasına malik 2 (iki) yeni elmi müəssisənin;

Nazirliyin tabeliyindəki Polimer Materialları İnstitutunun Sumqayıt Dövlət Universitetinin tabeliyinə verilməsini;

Nazirliyin tabeliyindəki Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun (Gəncə), Bioresurslar İnstitutunun (Gəncə), Aqrar Problemlər İnstitutunun (Gəncə), Nəbatat Bağının (Gəncə) Gəncə Dövlət Universitetinin tabeliyinə verilməsini;

Nazirliyin tabeliyindəki Təbii Ehtiyatlar İnstitutunun (Naxçıvan), Bioresurslar İnstitutunun (Naxçıvan), Batabat Astrofizika Rəsədxanasının (Naxçıvan) Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsini;

Nazirliyin tabeliyindəki "Nafta" Elmi İstehsalat Birliyinin, "Aşqar" Elmi İstehsalat Birliyinin və "Kompozit" Elmi İstehsalat Birliyinin ləğv edilməsini; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Elm və Təhsil Nazirliyi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

Maliyyə Nazirliyinə növbəti illərin dövlət büdcəsi layihələrində bu Sərəncama uyğun olaraq yeni yaradılacaq elmi müəssisələrin saxlanılması xərcləri ilə bağlı zəruri maliyyə vəsaitinin nəzərdə tutulmasını təmin etmək tapşırılıb.

Təhsil üzrə ekspert Kamran Əsədov "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bir sıra elmi-tədqiqat institutlarının birləşdirilərək publik hüquqi şəxslər formasında yenidən təşkili son illər Azərbaycan elm sistemində həyata keçirilən ən əhəmiyyətli struktur islahatlardan biridir.

Ekspert deyib ki, bu qərar yalnız təşkilati- texniki dəyişiklik deyil, eyni zamanda elmi idarəetmənin optimallaşdırılması, tədqiqat fəaliyyətinin nəticəyönümlü formalaşdırılması və dövlətin elmə yanaşmasının modernləşdirilməsi baxımından strateji mahiyyət daşıyır.

K. Əsədov deyir ki, hazırda ölkədə elmi müəssisələrin əksəriyyəti ya keçmiş sovet idarəetmə strukturunu qoruyub saxlayır, yaxud da fəaliyyəti formal xarakter daşıyır. Paralel tədqiqat istiqamətlərinə malik çoxsaylı institutlar bəzən bir-birindən xəbərsiz, koordinasiyasız və qeyri-səmərəli şəkildə fəaliyyət göstərirlər. Bu vəziyyət isə ölkənin elmi potensialından tam istifadə edilməsinə mane olur. Onun qənaətincə, Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda yer alan bəzi institutlar, xüsusilə də tətbiqi xarakterli olmayan, əsasən fundamental tədqiqatlara fokuslanan qurumlar, iqtisadiyyat və sosial həyat üçün real nəticə yarada bilmir. Ekspert deyir ki, 2023-cü ilin sonunda aparılmış təhlillərə əsasən, 30-dan çox elmi müəssisənin yalnız 12-si il ərzində qrant və ya sifarişli layihələr üzrə real nəticə təqdim edib.

"Elm haqqında" Azərbaycan Respublikasının Qanununun 3.2-ci maddəsində göstərilir ki, elmin əsas məqsədi innovasiyaya, iqtisadi inkişaf və sosial tərəqqiyə xidmət edən tədqiqatların aparılmasıdır. Lakin mövcud institutlar bu məqsədi yerinə yetirməkdə çətinlik çəkir, çünki inzibati və maliyyə idarəetməsi sərt bürokratik çərçivəyə salınıb, əməkdaşların təşəbbüskarlığı və yaradıcı potensialı isə çox vaxt dəyərləndirilmir. Publik hüquqi şəxs (PHŞ) modelinə keçid bu məhdudiyyətlərin aradan qaldırılmasına yönəlib", deyə müsahibimiz vurğulayıb.

K.Əsədovun sözlərinə görə, PHŞ formatı elmi müəssisəyə həm dövlət vəsaiti ilə maliyyələşmək, həm də sahibkarlıq fəaliyyəti ilə öz büdcəsini formalaşdırmaq imkanı yaradır: "Bu model hüquqi və maliyyə muxtariyyətini genişləndirir, idarəetmədə çeviklik və nəticəyönümlülüyü təmin edir. Həmçinin PHŞ kimi fəaliyyət göstərən institutlar öz əməkdaşlarını bazar şərtlərinə uyğun stimullaşdıra, beynəlxalq qrantlara birbaşa müraciət edə, yerli və xarici tərəfdaşlarla müqavilələr imzalaya bilirlər. Bu isə elm sahəsində rəqabət mühitini artırır, passivlik və inzibatçılıqdan uzaq, aktiv tədqiqat mühiti formalaşdırır".



Ekspert bildirir ki, institutların birləşdirilməsi əlavə üstünlüklər yaradır.

"Eyni və ya yaxın sahələr üzrə fəaliyyət göstərən qurumların vahid strukturda cəmlənməsi tədqiqat mövzularının koordinasiyasını təmin edir, təkrarçılıq və resurs israfının qarşısını alır. Bu, eyni zamanda maddi-texniki bazanın birləşdirilməsinə və laboratoriyaların daha səmərəli istifadəsinə imkan verir. İnsan resurslarının rasional bölgüsü sayəsində elmi kollektivlərin ixtisaslaşması dərinləşir, multidissiplinar tədqiqat qruplarının yaranmasına zəmin yaranır", deyə K. Əliyev əlavə edib.

Həmsöhbətimiz bildirir ki, dünya təcrübəsində də bu cür institutlaşma və strukturun optimallaşdırılması geniş tətbiq olunur: " Məsələn, Almaniyada Fraunhofer Cəmiyyəti müxtəlif tətbiqi elmi istiqamətlər üzrə institutların birləşməsi ilə yaradılıb və bu model sonradan Avstriya, İsveçrə, Cənubi Koreya və Yaponiyada da tətbiq olunub. Fraunhofer institutları dövlət sifarişlərindən əlavə, sənaye ilə əməkdaşlıq və kommersiyalaşdırılmış tədqiqatlar vasitəsilə fəaliyyətlərini maliyyələşdirir. Eyni zamanda, Cənubi Koreyada fəaliyyət göstərən KIST (Korea Institute of Science and Technology) kimi qurumlar dövlət-özəl əməkdaşlığını gücləndirməklə elmi nəticələrin texnologiyaya və məhsula çevrilməsini təmin edirlər. Azərbaycan üçün bu cür birləşmə və PHŞ formasına keçid - yalnız idarəetmə islahatı deyil, həm də elmi sistemin rəqabətqabiliyyətliliyinin artırılması üçün əsas alət ola bilər. Əgər bu proses şəffaf, mərhələli və elmi ictimaiyyətin iştirakı ilə aparılarsa, nəticədə:

- elmi nəticələr real sektora tətbiq edilə biləcək,
- dövlət büdcəsindən ayrılan vəsaitin qarşılığı ölçülə biləcək,
- ali məktəblərlə institutlar arasında əlaqələr güclənəcək,
- doktorantların və magistrlərin tədqiqat imkanları genişlənəcək,
- beynəlxalq qrantlar və layihələr üzrə iştirak səviyyəsi yüksələcək".

Amma o, bu prosesin uğurlu olması üçün bəzi risklərin də nəzərə alınmasının vacib olduğu qənaətindədir. Belə ki, əgər institutların birləşdirilməsi sadəcə struktur islahatından ibarət olarsa və elmi kadrların inkişafı, maddi-texniki bazanın gücləndirilməsi, motivasiya sisteminin yaradılması kimi məsələlər arxa planda qalarsa, bu islahat nəticə verməyə bilər. Eyni zamanda, publik hüquqi şəxs statusunun yalnız hüquqi qeydiyyatla məhdudlaşmaması, real fəaliyyət müstəvisinə keçməsi üçün effektiv nəzarət və qiymətləndirmə mexanizmləri yaradılmalıdır: "Nəticə olaraq, elmi institutların birləşdirilərək PHŞ formasında yenidən təşkili, Azərbaycanda elmin çevik, rəqabətqabiliyyətli və nəticəyə yönəlmiş bir sistemə çevrilməsi üçün mühüm fürsətdir. Bu fürsət düzgün idarə olunarsa, təhsilin elmlə inteqrasiyasına, ölkənin intellektual və texnoloji inkişafına real töhfə verə bilər".

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

14_27 IYUI-QARA.qxd 4/17/2025 10:10 PM Page 13



## Sabunçuda süd məhsullarının istehsalı müəssisəsində nöqsanlar aşkarlandı

***AQTA əməkdaşları tərəfindən Sabunçu rayonu, Maştağa qəsəbəsi, Mehdi Hüseynzadə 65 ünvanında fəaliyyət göstərən, Hüseynov Ağahüseyn Kamil oğluna məxsus süd məhsullarının istehsalı müəssisəsində keçirilmiş yoxlama zamanı qida təhlükəsizliyi sahəsində bir sıra tələblərin pozulması faktları aşkarlanıb.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən qanunsuz fəaliyyət göstərdiyi, emal prosesi zamanı texnoloji ardıcıllıq prinsipinə, gigiyena qaydalarına riayət olunmadığı, qablarda kiflənmə əlamətlərinin müşahidə edildiyi, hazır məhsulların birbaşa döşəmə üzərində, ara məsafəsi gözlənilmədən saxlandığı, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, işçi heyətin ilkin və dövri tibbi müayinədən keçmədiyi və gigiyenik təlimlərə cəlb edilmədiyi müəyyən edilib.

Bundan başqa, müəssisədə istehsal olunan məhsulların (şor, dovğa) etiket məlumatlarında istehsal tarixi və yararlılıq müddətinin saxtalaşdırıldığı aşkarlanıb. Məhsullardan nümunələr götürülərək müayinələrin aparılması üçün laboratoriyaya təqdim olunub.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib, müəssisənin fəaliyyəti nöqsanlar aradan qaldırılanadək müvəqqəti məhdudlaşdırılıb.

## 10-dan çox çayda artım qeydə alınıb

***Avtomat hidroloji stansiyaların aprelin 17-si saat 10:00-a olan məlumatına əsasən çaylarda yüksək sululuq davam edir.***

Bu barədə "Unikal"a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Belə ki, Böyük Qafqaz ərazisindən axan Qarasuçayda 156 sm, Əyriçayda 14 sm, Kiçik Qafqaz ərazisindən axan Zəyəmçayda 15 sm, Əsrikçayda 7 sm, Kürəkçayda 5 sm, Qarabağ və Şərqi Zəngəzur bölgəsindən axan Oxçuçayda 14 sm, Zabuxçay və Quruçayda 12 sm, Köndələnçayda 5 sm, Tutqunçay və Həkəriçayda 4 sm, Lənkəran-Astara bölgəsindən axan Təngərüdçayda 10 sm artım qeydə alınıb.

## Ağdaşda yazlıq bitkilərin əkini davam edir

***Rayonda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 01 aprel 2024-ci il tarixə 3014,0 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır. Bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 62,0 hektar və ya 2,0 faiz azdır.***

Əkilmiş yazlıq əkinlərin 2213,0 hektarını yonca, 410,0 hektarını tərəvəz, 272,5 hektarını kartof, 63,0 hektarını bostan bitkiləri, 36,5 hektarını yazlıq dənli və dənli paxlalılar (ondan 11,5 hektarını vələmir), 2,0 hektarını qarğıdalı, 17,0 hektarını isə sair bitkilər təşkil etmişdir. Hazırda təsərrüfatlarda yazlıq bitkilərin əkini davam edir.

***Ağdaş Rayon Statistika İdarəsi***

## Yağışlı havada ölümlə nəticələnən qəza baş verməyib

***Qeyri-sabit hava şəraitinə baxmayaraq, ötən gün respublika ərazisində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi qeydə alınmayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polisi İdarəsi məlumat yayıb. "Bu, Dövlət Yol Polisi əməkdaşlarının gücləndirilmiş iş rejimində apardığı nəzarət tədbirləri ilə yanaşı, sürücülərin məsuliyyətli davranışlarının nəticəsidir.

Yol hərəkəti təhlükəsizliyinin təmin olunması məqsədilə xüsusilə təhlükəli hesab edilən yol sahələri DYP əməkdaşları tərəfindən nəzarətdə saxlanılıb, sürücülərə yol və hava şəraiti ilə bağlı operativ məlumatlar çatdırılıb.

Səyyar qaydada aparılan maarifləndirici tədbirlər zamanı sürücülərə hava və yol şəraitinə uyğun davranmaları, sürət həddinə əməl etmələri, ara məsafəsini qorumaları tövsiyə olunub. Baş Dövlət Yol Polisi İdarəsi təhlükəsizliyə biganə qalmayan, qaydalara əməl edən bütün sürücülərə təşəkkür edir və bir daha xatırladır: dəyişkən hava şəraiti yol qəzalarının başvermə riskini artırır. Bu səbəbdən hər bir sürücü yola çıxmazdan əvvəl nəqliyyat vasitəsinin texniki vəziyyətini yoxlamalı, hərəkət zamanı isə maksimum diqqətli və məsuliyyətli olmalıdır", - deyə məlumatda qeyd olunub.

# Qəbul imtahanlarına qeydiyyat başladı

***Ali təhsil müəssisələrinə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlərin qeydiyyatı elan edilib.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlər 2025-ci il aprelin 17-dən 1 may saat 23:59-dək şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (https://www.e-gov.az/az/services/read/3148/2) daxil olaraq imtahan vermək istədikləri ixtisas qrupunu seçib qeydiyyatdan keçməlidirlər.




Bu il tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə buraxılış imtahanı vermiş, lakin 20 fevral - 5 mart tarixlərində aparılan ərizə qəbulunda iştirak etməyən cari ilin məzunlarının müraciətləri nəzərə alınaraq onların da I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının ikinci mərhələsində iştirak etmək üçün qeydiyyatdan keçməsinə imkan yaradılıb.

Müsabiqədə iştirak ödənişlidir.

**Ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı DİM-in göstərdiyi ödənişli xidmətlər haqqında məlumat**

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında (imtahanın ikinci mərhələsinin yalnız bir cəhdində) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.3-1.7-ci bəndlərinə əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Digər abituriyentlər isə ərizəni təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olunduqdan sonra onların şəxsi kabinetlərindəki hesablarından çıxılır.

Qeyd: Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtini ödəmiş, lakin 20 fevral -5 mart tarixlərində keçirilən ərizə qəbulu zamanı "Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək istəyirəm" bəndini seçməyən abituriyentlərə yayda kolleclərin ixtisas seçimində iştirak etməyə icazə veriləcək.

Qeyd: Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 25-də, I və IV qruplar üzrə isə iyunun 1-də keçiriləcək. III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupunu seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyunun 22-də keçiriləcək.

Qeyd: I ixtisas qrupu üzrə həm Rİ, həm də RK altqrupu üzrə imtahan vermək istəyən abituriyentlər ikinci mərhələnin birinci cəhdində bir, ikinci cəhdində isə digər altqrupu seçə bilərlər. Abituriyentlər istəklərindən asılı olaraq hər iki cəhddə eyni altqrup üzrə də iştirak edə bilərlər.

Xatırladaq ki, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı ərizələrin qəbulu iki mərhələdə olmaqla internet vasitəsilə aparılır. Ərizə qəbulunun birinci mərhələsi 2025-ci il fevralın 20-dən martın 5-dək həyata keçirilib. Həmin mərhələdə ali təhsil müəsssisələrinə (o cümlədən V ixtisas qrupu üzrə) və tam (11 illik) orta təhsil bazasında kollecə qəbul olmaq istəyənlər qeydiyyatdan keçiblər.

14_27 IYUI-QARA.qxd 4/17/2025 10:11 PM Page 14



# Bu plastik cərrahların fəaliyyətinə icazə verildi - Siyahı



***Azərbaycan Respublikasının ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının kompleks şəkildə yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb.***

Bu barədə "Unikal"a Səhiyyə Nazirliyindən məlumat verilib.Sözügedən tibb mütəxəssisləri Xüsusi Təftiş Komissiyasının iclaslarına dəvət olunmuş və sənədləri ətraflı araşdırılıb. Əvvəlcədən xəbərdarlıq edilməklə iclasların video-audio çəkilişləri aparılmış və hər bir iclas protokollaşdırılıb. Komissiyanın ümumilikdə 11 iclası keçirilib.

Xüsusi Təftiş Komissiyasının müvafiq qərarları ilə sənədlərinin əsaslılığı təsdiq olunmuş "Azərbaycan Respublikasının ərazisində plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verilən həkim-mütəxəssislərin Siyahısı" tərtib olunaraq aşağıdakı linkdə yerləşdirilib:

Qeyd olunan linkdə göstərilən Siyahı 17 aprel 2025-ci il tarixinə olan məlumatları özündə əks etdirir. Tibb mütəxəssislərinin plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verən yeni hüquqi əsaslar olduğu halda sözügedən siyahı mütəmadi yenilənəcək.

Bununla yanaşı, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq əmri ilə "Cərrahiyyə profili üzrə digər peşə ixtisas sahibləri tərəfindən ali ixtisas tibb təhsilinin tədris proqramlarına uyğun olaraq icrasına icazə verilən plastik cərrahiyyə sahəsinə aid əməliyyatların Siyahısı" təsdiq edilib.

*17 aprel 2025-ci il tarixinə*

Azərbaycan Respublikasının ərazisində plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verilən həkim-mütəxəssislərin

**SİYAHISI**

| № | SOYAD | AD | ATA ADI | Reyestr nömrəsi |
|---|---|---|---|---|
| 1 | Abdullayev | Elçin | Nizami | 1085102 |
| 2 | Abbasova | Aytən | Namiq | 1097089 |
| 3 | Abdullayev | Elvin | Oruc | 1180879 |
| 4 | Axund-zadə | İlyas | Salavat | 1092439 |
| 5 | Cəlilova | Günay | Mustafa | 1170793 |
| 6 | Cümşüdov | Adil | Cümşüd | 1204212 |
| 7 | Əliyev | Elman | Sabir | 1017988 |
| 8 | Əliyev | Mahir | Mehdi | 1194013 |
| 9 | Əliyev | Vəli | Malik | 1202540 |
| 10 | Əliyev | Abduləli | Əlihüseyn | 1083826 |
| 11 | Ələkbərov | Vüqar | Əli | 1103762 |
| 12 | Əvəzzadə | Elməddin | Niyaz | 1207584 |
| 13 | Əhmədxanlı | Nərmin | Xanlar | 1106668 |
| 14 | Xankişiyev | Röyal | Xanlar | 1243598 |
| 15 | İsgəndərov | Ramazan | Musa | 1231351 |
| 16 | İbrahimova | Sevinc | Məmməd | 1151534 |
| 17 | Kərimov | Rauf | İskəndər | 1092440 |
| 18 | Kandal | Sabahattin | Yaser | 1164021 |
| 19 | Qasımov | Tale | Akif | 1216898 |
| 20 | Qasımov | Bəxtiyar | Əli | 1202542 |
| 21 | Qazıyeva | Aygün | Məmmədhəsən | 1187659 |
| 22 | Qafarov | Məhəmməd | Fətullah | 1178864 |
| 23 | Qələndərov | Vaqif | Məhərrəm | 1143833 |
| 24 | Quliyev | Teymur | Arif | 1222303 |
| 25 | Quliyeva | Əsmər | Məhərrəm | 1189118 |
| 26 | Məmmədov | Tağı | Əli | 1111019 |
| 27 | Məmmədov | Elçin | Vəli | 1109918 |
| 28 | Məmmədov | Vasif | Qabil | 1243673 |
| 29 | Məmmədov | Dilqəm | Telman | 1153411 |
| 30 | Musayeva | Nəzmin | Cavanşir | 1184022 |
| 31 | Nemətzadə | Tale | Əflatun | 1187615 |
| 32 | Namazəliyev | Rauf | Mətləb | 1245004 |
| 33 | Rəsulzadə | Vüsal | Əyyub | 1240672 |
| 34 | Rəsulov | Teymuraz | Namiq | 1106700 |
| 35 | Rüstəmov | Nicat | Cahid | 1213203 |
| 36 | Samadov | İsmikhan | Samad | 1247694 |
| 37 | Samin | Sami | Ulhak | 1162109 |
| 38 | Salmanov | Araz | İsax | 1157792 |
| 39 | Seyid | Mircəfər | Mirsəməd | 1157876 |
| 40 | Seyidli | Mirfeyzulla | Mirsəttar | 1247660 |
| 41 | Süleymanov | Şamil | Əhməd | 1212465 |
| 42 | Həsənov | Nicat | Bəxtiyar | 1202550 |

Sözügedən siyahı ilə aşağıdakı linkdə tanış ola bilərsiniz:

**Cərrahi ixtisaslar üzrə peşə hazırlığı keçmiş mütəxəssislər tərəfindən icrasına icazə verilən plastik əməliyyatların Xəstəliklərin Beynəlxalq Təsnifatının IX buraxılışı üzrə**

**SİYAHISI**

I. **Ağız və üz-çənə cərrahları** (o cümlədən, *"Ağız və üz-çənə cərrahiyyəsi" fənnini tədris edən, ali təhsil diplomunu 2010-cu ilə kimi (həmin vaxt da daxil olmaqla) alan, 5 il ali təhsil və 1 il internatura və ya 5 il ali təhsil və 2 il klinik ordinatura keçən həkim-stomatoloqlar)* **tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar**

*(Sadalanan əməliyyatlar törəmə səbəbindən aparılarsa, 2024-cü ilə qədər müvafiq təhsil almış və cərrahi profil üzrə fəaliyyət göstərən həkim-onkoloqlar tərəfindən də icra edilə bilər.)*

| XBT–9 KM kodu | XBT – 9 KM kodu üzrə açıqlama |
|---|---|
| 02.01* | **Kranial şırımın açılması**<br>Linear kranioektomiya<br>Laylı kranioektomiya |
| 02.06* | **Digər kranial osteoplastika**<br>Kəllə sümüyünün bərpası ƏGO[1]<br>Kəllə sümüyü sümük yamağının reviziyası |
| 18.7* | **Xarici qulağın digər plastik bərpa növləri** |
| 04.02 | **Üçlü sinirin ayrılması**<br>Retroqasserian nevrotomiya |
| 21.83* | **Total burun rekonstruksiyası**<br>Burnun rekonstruksiyası:<br>said plastikası;<br>alın plastikası. |
| 21.84* | **Rinoplastikanın reviziyası** |
| 21.85* | **Artırılma rinoplastikası**<br>Artırılma rinoplastikası:<br>qreftlə;<br>sintetik implantla. |
| 21.86* | **Məhdud rinoplastika**<br>Nasolabial yamaqlarla aparılan plastik bərpa;<br>Uc rinoplastikası. |
| 25.5 | **Dilin bərpası və qlossoplastika** |
| 27.54 | **"Cleft" dodağın bərpa edilməsi** |
| 27.55 | **Dodaq və ağıza tam dəri qreftinin yerləşdirilməsi** |
| 27.56 | **Dodaq və ağıza digər dəri qreft növünün yerləşdirilməsi** |
| 27.57 | **Dodaq və ağıza qreft ayaqcığı və yamağın yerləşdirilməsi** |
| 86.82* | **Üz qırışlarının əməliyyatları**<br>Üz dərisinin dartılması |
| *xüsusi hazırlıq keçmiş cərrahlar tərəfindən icra edilə bilər. | |

[1] *ƏGO-əks göstəriş olmadıqda.*

II. **Otorinolarinqoloqlar tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar:**

*(Sadalanan əməliyyatlar törəmə səbəbindən aparılarsa, 2024-cü ilə qədər müvafiq təhsil almış və cərrahi profil üzrə fəaliyyət göstərən həkim-onkoloqlar tərəfindən də icra edilə bilər.)*

| | |
|---|---|
| 18.5 | **Qabaran qulağın cərrahi korreksiyası /Şəlpə qulaq**<br>"pinning";<br>geriyə çəkmə. |
| 18.7 | **Xarici qulağın digər plastik bərpa növləri** |
| 18.71 | **Qulağın konstruksiyası**:<br>Mövcud olmayan qulağın protezlə əvəz edilməsi. |

II. **Otorinolarinqoloqlar tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar:**

*(Sadalanan əməliyyatlar törəmə səbəbindən aparılarsa, 2024-cü ilə qədər müvafiq təhsil almış və cərrahi profil üzrə fəaliyyət göstərən həkim-onkoloqlar tərəfindən də icra edilə bilər.)*

| | |
|---|---|
| 18.5 | **Qabaran qulağın cərrahi korreksiyası /Şəlpə qulaq**<br>"pinning";<br>geriyə çəkmə. |
| 18.7 | **Xarici qulağın digər plastik bərpa növləri** |
| 18.71 | **Qulağın konstruksiyası**:<br>Mövcud olmayan qulağın protezlə əvəz edilməsi. |

| | |
|---|---|
| 85.53* | **Süd vəzinə birtərəfli implant** |
| 85.54* | **Süd vəzinə ikitərəfli implant**<br>Döş vəzinin implantı, başqa cür müəyyən edilməyib |
| 85.55* | **Süd vəzisinə piy qrefti**<br>*Daxil edilib:* autoloji qreft üçün piyin ekstraksiyası<br>Autoloji piyin transplantasiyası və ya köçürülmsə<br>Süd vəzinə piy qrefti, başqa cür müəyyən edilməyib<br>Süd vəzinə piyin qrefti, doldurulmuş qreftlə birlikdə və ya onsuz<br>Mikro-piy qreftin köçürülməsi |
| 85.82* | **Süd vəzinə parçalanmış dəri qreftinin qoyulması** |
| 85.83* | **Süd vəzinə eninə tam dəri qreftinin qoyulması** |
| 85.6* | **Mastopeksiya** |
| 85.72* | **"Transverse rectus abdominis" əzələ-dəri (TRAM) yamağı, ayaqcıqda** |
| 85.79* | **Süd vəzinin digər total rekonstruksiya növləri** |
| 85.86* | **Gilənin transpozisiyası** |
| 85.87* | **Gilənin digər bərpa və ya rekonstruksiya növləri** |
| 86.69* | **Digər yerlərdə qoyulan digər dəri qreftləri** |
| 86.83* | **Ölçü kiçildilməsi üzrə plastik əməliyyat**<br>Adipoz toxumasının reduksiyası - abdominoplastika:<br>qarın divarı (pendulous)<br>əllər ("batwing")<br>sağrı budlar (troxanterik lipomatoz) |
| * xüsusi hazırlıq keçmiş cərrahlar tərəfindən icra edilə bilər. | |

# Bu şəxslər vergi hesabatı verməyəcəklər

***Əlilliyi olan şəxslərin öz bacarıqları və yaradıcılıqları ilə məşğul olmalarını təşviq etmək, onların iqtisadi fəaliyyətini stimullaşdırmaq məqsədilə Vergi Məcəlləsinə və "Sosial sığorta haqqında" Qanuna dəyişikliklər edilib.***

Dövlət Vergi Xidmətindən "Unikal"a verilən məlumata əsasən, mövcud qanunvericiliyə görə, sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər vergi orqanlarında uçota alınmaqla gəlirlərini vergi orqanına bəyan etməli və hesablanmış vergiləri dövlət büdcəsinə ödəməlidirlər.

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, əlilliyi olan şəxslərin gəlirlərinin aşağı dərəcə ilə vergiyə cəlb olunması, həmçinin onlara münasibətdə vergi inzibatçılığının sadələşdirilməsi nəzərdə tutulur. Bundan sonra həmin şəxslərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından əldə etdikləri gəlirlərdən xərclər çıxılmadan 2 faiz həcmində ödəmə mənbəyində vergi həmin agentlik tərəfindən tutularaq bəyan ediləcək. Beləliklə, əlilliyi olan şəxslərin vergi orqanlarında qeydiyyatdan keçmək, vergi hesabatları təqdim etmək və digər inzibati prosedurları həyata keçirmək öhdəliyi yaranmayacaq.

Eyni zamanda, "Sosial sığorta haqqında" Qanunda edilmiş dəyişikliyə görə, həmin şəxslərin DOST Agentliyinin rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı tutulmayacaq.

# Ağdaşda heyvandarlıq məhsulları istehsalının statistikası

***Bu ilin yanvar-mart aylarında Ağdaş rayonunda 27 milyon 937,9 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 27 milyon 920,1 min matı və yaxud 99,9 faizi heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı müqayisəli qiymətlərlə 1,1 faiz azalmışdır.***

2025-ci il aprel ayının 1-i vəziyyətinə rayonun təsərrüfatlarında 66703 baş iri buynuzlu mal-qara, o cümlədən 29918 baş inək və camış, 72470 baş qoyun və keçi mövcud olmuşdur.

2025-ci ilin yanvar-mart ayları ərzində 2549,5 ton diri çəkidə ət, 10059,3 ton süd, 6612 min ədəd yumurta istehsal olunmuşdur. 2024-cü ilin eyni dövrünə nisbətən ət istehsalı 0,1 faiz artmış, süd istehsalı 3,9 faiz azalmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Ağsu aşırımında torpaq sürüşməsi baş verdi

***Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 147-ci kilometrliyində torpaq sürüşməsi baş verib.***

"Unikal" xəbər verir ki, son günlər yağan güclü yağışlardan sonra Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Ağsu rayonundan keçən hissəsində torpaq sürüşməsi baş verib.

İlkin məlumatlara görə, yolun 147-ci kilometrliyində baş verən torpaq sürüşməsi nəticəsində yolun bir zolağında asfalt qatında dərin çökmə və çatlar əmələ gəlib. Bu səbəbdən, həmin hissədə avtomobillərin hərəkəti mümkün olmayıb.

# 2024-cü ildə Yevlax şəhərində "İnformasiya və rabitənin işi haqqında" statistika

***2024-cü ildə informasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətdən əldə olunan gəlirin həcmi əvvəlki illə müqayisədə 48,4 faiz çox və ya 3792,4 min manat olmuşdur. Xidmətlərin 94,7 faizi bilavasitə əhaliyə göstərilmişdir.***



Əhaliyə göstərilən ödənişli xidmətin həcmi əvvəlki illə müqayisədə 53,3 faiz çox olmuşdur.

Hesabat dövründə informasiya və rabitə müəssisələrində çalışanların orta sayı 88 nəfər olmuşdur ki, bu da ötən illə müqayisədə 22,3 faiz azalmışdır. Onların orta aylıq nominal əməkhaqqı 785,0 manat olmuşdur ki, bu da ötən illə müqayisədə 33,0 faiz çox olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin baş məsləhətçisi Şəfaqət Ələkbərova***

# Fransalı deputatdan İrəvanda separatçı addım



***Fransalı deputat Nikolas Metzdorf İrəvanda ləğv edilmiş separatçı rejimin sonuncu başçısı Samvel Şahramanyanla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə o, özünün X səhifəsində yazıb. "Bu gün Ermənistanda olduğum üçün çox xoşbəxtəm. Mən Dağlıq Qarabağın (Azərbaycanın Qarabağ bölgəsi - red.) mühacirətdə olan prezidenti ilə İrəvanda görüşə bildim...", - deyə o qeyd edib.

Onu da deyək ki, bu addım fransızların separatçılığı dəstəkləməsinə aid ilk nümunə deyil.

***Ağarza Elçinoğlu***

# "ABŞ-nin tarifləri heç bir mənası olmayan rəqəmlər oyunudur" - Çin XİN

***Çin Xarici İşlər Nazirliyi ABŞ-nin Çin mallarına həddindən artıq yüksək tariflər tətbiq etmək planlarını heç bir real iqtisadi əhəmiyyəti olmayan "rəqəmlər oyunu" adlandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Çin Xarici İşlər Nazirliyi məlumat yayıb.

"Biz müvafiq açıqlamaları nəzərə almışıq: "245% rəqəmi haradan gəldi, siz Amerika tərəfindən soruşun", - bəyanatda deyilir. Çin tərəfi qeyd edib ki, Vaşinqton tariflərdən təzyiq və siyasi məcburiyyət aləti kimi istifadə edir.

"Əgər ABŞ Çinin hüquq və maraqlarını ciddi şəkildə pozmaqda davam edərsə, Çin qətiyyətli əks tədbirlər görəcək və sona qədər mübarizə aparacaq", - XİN əlavə edib.

***Gülayə Mecid***

# "İrəvanla Bakı arasındakı sülhə dəstək verməyə hazırıq" - İran XİN



***İslam Respublikası sülhün əldə olunmasında İrəvan və Bakıya dəstək verməyə hazırdır.***

"Unikal" xəbər verir ki, bu barədə İran İslam Respublikası xarici işlər nazirinin müavini Məcid Təxt Rəvançi deyib.

Diplomat həmçinin Ermənistan və Azərbaycan arasında sülh sazişinin regional sabitlik üçün əhəmiyyətini vurğulayıb və sənədin imzalanmağa hazır olduğunu bildirərək hər iki ölkəni gələcəyə diqqət yetirməyə çağırıb.

O, sülhsevər gələcəyi təmin etmək üçün qarşılıqlı hörmətə və beynəlxalq hüquqa əsaslanan regional əməkdaşlığa çağırıb.

***Ağarza Elçinoğlu***

# Tramp Meksika sərhədinə zirehli döyüş maşınları yerləşdirib

***ABŞ prezidenti Donald Tramp keçən həftə ABŞ-nin "müxtəlif təhdidlərin hücumuna məruz qaldığını" iddia edərək ABŞ-Meksika sərhədi boyunca Kaliforniyadan Nyu-Meksikoya qədər uzanan federal torpaq zolağına nəzarəti ələ keçirməyə icazə verib.***

"Unikal" xəbər verir ki, bu barədə CNN telekanalı məlumat yayıb. Bildirilir ki, bu, ölkə daxilində asayişi təmin etmək üçün silahlı qüvvələrdən istifadəyə qoyulan qadağadan yan keçmək cəhdidir. Trampın əmri ilə ordu aprelin 5-də Texas ştatının Fort Bliss şəhərinə 50-dən çox Stryker zirehli döyüş maşını çatdırıb.

Döyüş üçün nəzərdə tutulmuş maşınlar Trampın cənub sərhədini bağlamaq planının mərkəzi hissəsidir.

Bu o deməkdir ki, miqrantlar Meksika sərhədini keçərək hərbi obyektə düşərək əsgərlərə həbslər aparmağa imkan verəcək. İndiyədək bu iş ABŞ Sərhəd Patruluna, əyalət və yerli polisə həvalə edilib.

Ərazidə təhlükəsizliyi təmin etmək üçün indiyədək təxminən 7000 dəniz piyadası və ordu əsgəri yerləşdirilib.

***Gülayə Mecid***

# "Məqsəd sərhədlərin tam açılmasıdır" - Mirzoyan



***"Ermənistan-Türkiyə ikitərəfli gündəliyindən danışsaq, artıq hava məkanından istifadə, yaxud Marqara-Əlican sərhəd-keçid məntəqəsinin infrastrukturunun hər iki ölkənin mütəxəssisləri tərəfindən qiymətləndirilməsi kimi bir sıra hiss olunan addımlar atılıb".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Antalya Diplomatik Forumu çərçivəsində Türkiyə KİV-ə müsahibəsində deyib.

Onun sözlərinə görə, iki ölkə bir hissəsi sərhəddə yerləşən Gümrü-Qars dəmir yolunun infrastrukturunu ikitərəfli şəkildə qiymətləndirib: "Bir neçə gün əvvəl iki ölkənin müxtəlif idarələrinin mütəxəssisləri Türkiyədə görüşüblər və məqsəd yenidən sərhəddə olan tarixi Ani körpüsünü bərpa etməkdir. Bir sıra başqa proqramlar da var.

Yəni proses davam edir, inkişaflar var. Eyni zamanda qeyd etməyə bilmərəm ki, hələ icra olunmamış müqavilələr də var. Məsələn, bizim aramızda sərhədin üçüncü ölkə vətəndaşlarına, eləcə də Ermənistan və Türkiyənin diplomatik pasportlarına malik vətəndaşlarına açılması ilə bağlı razılaşmamız var idi. Təəssüf ki, bu razılaşma hələ də həyata keçirilməyib.

Amma eyni zamanda, hər iki tərəfin ümumi anlayışı var ki, son məqsəd münasibətlərin tam normallaşması, diplomatik münasibətlərin qurulması, sərhədlərin tam açılmasıdır. Biz, həmçinin birgə enerji layihələri və tranzit imkanlarını müzakirə etdik. Üstəlik, beynəlxalq platformalarda əməkdaşlıq mövzusuna toxunduq".

***Ağarza Elçinoğlu***

# ABŞ Rusiyaya qarşı sanksiyaları ləğv edə bilər

***ABŞ prezidenti Donald Tramp Ukraynada sülhə nail olmaq üçün Rusiyaya qarşı sanksiyaları ləğv edə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" nəşri məlumat dərc edib.

Məqalədə qeyd olunur ki, sanksiyaların yumşaldılması Vaşinqtonun Moskva ilə Ukrayna ilə bağlı danışıqlarında "sövdələşmə aləti" kimi istifadə olunur.

Bundan əlavə, ABŞ-nin kommersiya maraqları da mühüm rol oynayır, çünki dövlət başçısı Donald Tramp iqtisadi perspektivləri Rusiya ilə ABŞ arasında münasibətlərin yenidən qurulmasında görür.

Aprelin 15-də Tramp sələfi Co Baydenin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar paketi-



nin bir il müddətinə uzadılmasını nəzərdə tutan sərəncam imzalayıb.

***Gülayə Mecid***

# Xameneinin məktubunu Putinə çatdırmaq üçün Rusiyaya getdi

***İranın xarici işlər naziri Seyid Abbas Əraqçi Rusiyanın yüksək rütbəli rəsmiləri ilə danışıqlar və məsləhətləşmələr aparmaq, eləcə də ali dini lider Ayətullah Əli Xameneinin Rusiya prezidenti Vladimir Putinə yazılı müraciətini çatdırmaq üçün Moskvaya gedib.***

"Unikal" xəbər verir ki, bu barədə "Tasnim" agentliyi məlumat yayıb.



İran İslam Respublikasının xarici işlər nazirinin Rusiyaya əvvəlcədən planlaşdırılan səfəri Rusiya xarici işlər naziri Sergey Lavrovun dəvəti və iki ölkə arasında strateji tərəfdaşlar kimi davam edən məsləhətləşmələr çərçivəsində baş tutur.

Səfər zamanı Əraqçi Rusiyanın yüksək rütbəli rəsmiləri ilə ikitərəfli münasibətlər, regional və beynəlxalq hadisələr, eləcə də ABŞ ilə son dolayı danışıqları müzakirə etməyi və fikir mübadiləsi aparmağı planlaşdırır.

***Ağarza Elçinoğlu***

# "Tramp ilk raundda Putinə uduzdu" - Polşalı general

***Rusiyanın hərəkətləri, o cümlədən Rusiya Silahlı Qüvvələrinin Sumı şəhərinə endirdiyi zərbələr həmkarı Vladimir Putinə "danışıqların birinci raundunda uduzan" ABŞ prezidenti Donald Trampın səriştəsizliyinin nəticəsi idi.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Polşa Quru Qoşunlarının keçmiş komandanı, general Valdemar Skrzypçak deyib.

Onun sözlərinə görə, Rusiyanın hərəkətləri ABŞ prezident administrasiyası üçün növbəti dərs olub. General qeyd edib ki, Vaşinqton indi "Rusiyanı daha yaxşı tanıyır və ondan nə gözlədiyini bilir".

"Trampın mövqeyi tezliklə dəyişəcək və o, Moskvaya qarşı təhdidlərdən istifadə edərək daha qətiyyətli davranmağa başlayacaq. Beləliklə, Tramp Putinlə danışıqların ilk raundunda uduzmuş kimi görünür. Ona görə də düşünürəm ki, amerikalılar artıq Ağ Evdəki mövqelərinə yenidən baxırlar və düşünürəm ki, bu, yaxın gələcəkdə səslənəcək".

Qeyd edək ki, Rusiya Silahlı Qüvvələri Ukraynanın şimal-şərqindəki Sumı şəhərinə raket zərbəsi endirib. Hadisə nəticəsində 30-dan çox dinc sakin ölüb, onlarla insan yaralanıb.

***Gülayə Mecid***

14_27 IYUl-QARA.qxd 4/17/2025 10:11 PM Page 16



# "Hələ heç nə bitməyib" - Ançelotti



***"Real"ın baş məşqçisi Karlo Ançelotti Çempionlar Liqasının 1/4 finalnın Madriddə "Arsenal"a uduzduqları (1:2) cavab matçından sonra fikirlərini bölüşüb.***

"Unikal" xəbər verir ki, italiyalı mütəxəssis mətbuat konfransında əvvəlcə "Komandanıza nə olub?" sualını cavablandırıb: "Bu gün təhlil etmək yersizdir, bu uğursuzluğu və bütün zərbələri qəbul etməliyik. Futbolçulara dedim ki, başlarını dik tutsunlar, biz başqa mövsümlərdə bu turnirdə çox şey əldə etmişik. Bu il isə buna bənzər bir şeyə nail ola bilmədik. İdmanda belə olur, məğlubedilməz komandalar yoxdur".

Ançelottiyə gələn mövsüm "Real"da olub-olmayacağı ilə bağlı sual da ünvanlanıb. O bildirib ki, klub rəhbərliyinin istənilən qərarına hörmətlə yanaşacaq: "Yeni mövsüm burda qalıb-qalmayacağımı bilmirəm və bilmək də istəmirəm. Çox şey yaşadıq. Futbolda sevincli və kədərli iki hissə var. Bu gün biz kədərlənirik. Sevinməyə öyrəşmişdik. Mövsüm davam edir, hələ heç nə bitməyib. Klublararası dünya çempionatında komandanın başında mən olacammı? İndi bu barədə danışa bilmərəm. Klub dəyişiklik etmək istəyərsə, qərara hörmətlə yanaşaram".

Xatırladaq ki, Londonda keçirilən ilk oyunda da "Arsenal"a uduzan (0:3) "Real" Çempionlar Liqası ilə vidalaşıb.

# Neymar yenə zədələndi, meydanı ağlayaraq tərk etdi

***Braziliya millisinin və "Santos" klubunun futbolçusu Neymar yenidən zədələnib.***

"Unikal" xəbər verir ki, 33 yaşlı hücumçu ölkə çempionatında evdə "Atletiko Mineyro"ya qarşı keçirilmiş IV tur oyununda (2:0) ayağından xəsarət alıb.



Ulduz oyunçu matçı başa vura bilməyib. O, cəmi 34 dəqiqə oynadıqdan sonra zədələnib. Bu səbəbdən əvəzlənən forvard meydanı göz yaşları ilə tərk edib.

Qeyd edək ki, Neymar mart ayında aldığı zədəni bir müddət əvvəl sağaldaraq yaşıl meydanlara qayıtmışdı.

# Boksçumuz dopinqə görə 4 il idmandan kənarlaşdırıldı

***Azərbaycan boksçusu Fərid Sadıqov dopinq qaydalarını pozduğu üçün 48 ay müddətinə yarışlardan kənarlaşdırılıb.***

Sadıqovun nümunələrində qadağan olunmuş maddələrin, onların metabolitlərinin və ya markerlərinin izləri aşkarlanıb.

Bununla yanaşı, o, həm də qadağan edilən maddədən və ya üsuldan istifadə etdiyi və ya bu istiqamətdə cəhd göstərdiyi üçün də cəzalandırılıb.

Diskvalifikasiya qərarı 2024-cü il yanvarın 1-dən qüvvəyə minib və sanksiya 2028-ci ilin eyni tarixinə qədər davam edəcək.



# Son yarımfinalçılar "Arsenal" və "İnter" oldu - Çempionlar Liqası

***UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, son iki cavab oyunundan sonra yarımfinalın bütün iştirakçıları bəlli olub.

"İnter" Almaniyada 2:1 hesabı ilə qalib gəldiyi "Bavariya"nı bu dəfə İtaliyada qəbul edib. 2:2 hesablı heç-heçə Milan təmsilçisini növbəti mərhələyə yüksəldib. "İnter" bu raundda İspaniya "Barselona"sına rəqib olub.

Digər matçda isə İngiltərə "Arsenal"ı İspaniyada "Real Madrid"lə qarşılaşıb. Londondakı ilk oyunda rəqibini 3 cavabsız qolla məğlub edən "topçular" səfərdə də qələbə qazanıblar - 2:1. "Arsenal" yarımfinalda Fransanın PSJ komandası ilə üz-üzə gələcək.

# Ronaldonun rekordu qırıldı

***"Real"ın futbolçusu Vinisius Junior yeni rekorda imza atıb.***

Çempionlar Liqasının 1/4 final mərhələsinin "Arsenal"la cavab oyununda (1:2) qol vuran hücumçu "Real"ın tarixinə ən məhsuldar braziliyalı kimi düşüb.

O, Madrid klubunda bütün turnirlərdə 105-ci qolunu vurub. Vinisius bununla da 104 qol vuran həmyerlisi Ronaldonun rekordunu yeniləyib.

Qeyd edək ki, 2018-ci ildən "Real"da çıxış edən 24 yaşlı



futboloçu bu mövsüm ümumilikdə 45 oyuna 20 qol vurub, 14 qol ötürməsi edib.



# "Futbolçunun kartını alsan, gecə ilə səni öldürər" - Şahin Diniyev

***Azərbaycan yığması, "Kəpəz", "Səbail" kimi klublarda işləmiş təcrübəli məşqçi Şahin Diniyev yutubda yayımlanan "11 adam" podkastının qonağı olub.***

"Qafqazinfo" xəbər verir ki, o, maraqlı açıqlamaları ilə diqqət çəkib.

Ş.Diniyev "Kəpəz"də işləməyin çətinliyindən, orada "razborka"ya çağırılmasından və haqqında gəzən söz-söhbətlərdən danışıb: "Kəpəz"də işləmək çox çətindir. Orada işləyərkən məni ağacın altında "razborka"ya çağırmışdılar. Bir dəfə də Gəncədən qayıdarkən qatara bilet aldım və gördüm ki, olduğum yerdə 4 nəfər məndən qabaq oturub. Dedilər ki, Bakıya gedirsənsə, get bir də qayıtma. Onlara bildirdim ki, sabah yenə burada olacağam. Çıxın burdan.

Bir də deyirdilər ki, Ş.Diniyev futbolçuların maaş kartlarını alır. Futbolçunun kartını alsan, gecə ilə səni öldürər".

# Xorvatiyalı futbolçudan ÇL matçında qalmaqallı hərəkət

***Ötən gün UEFA Çempionlar Liqasının 1/4 final mərhələsində baş tutan görüşlər gərginliklə də yadda qalıb.***



Həm "Real" - "Arsenal" (1:2), həm də "İnter" - "Bayern" (2:2) görüşlərində ara qarışıb.

Madriddə keçirilən "Real" - "Arsenal" matçının fasiləsi zamanı meydan sahiblərinin futbolçusu Dani Karvahal rəqib oyunçu Bukayo Sakanın boğazından yapışıb. O, ilk 45 dəqiqənin tamamında paltardəyişmə otağına yollanan ingiltərəli futbolçuya yaxınlaşaraq onu qıcıqlandırıb. Nəticədə tərəflər arasında gərginlik yaşanıb. Daha sonra hər iki komandanın digər futbolçuları müdaxilə edərək aranı sakitləşdirib.

Milanda keçirilən "İnter" - "Bayern" görüşündə isə almanların futbolçusu Yosip Stanisiç qalmaqala səbəb olub. Xorvat futbolçu matça əlavə olunmuş dəqiqələrdə meydandan çıxan topu oyuna tez daxil etmək istəsə də, topdaşıyan uşaqlardan biri buna mane olmaq istəyib. Nəticədə Stanisiç onu itələyib. Bu isə "İnter" futbolçularını qəzəbləndirib və onlar bavariyalıların futbolçusuna hücum çəkib.

# Martines "İnter"in tarixinə düşdü



***"İnter"in hücumçusu Lautaro Martines komandanın heyətində 150 qol həddinə çatıb.***

QOL.az xəbər verir ki, argentinalı futbolçu Çempionlar Liqasının 1/4 final mərhələsinin "Bavariya" ilə cavab qarşılaşmada (2:2) 1 qol vuraraq buna nail olub. Martines "İnter"in tarixində 150 qol həddinə çatan ilk əcnəbi oyunçu olub.

Komandanın kapitanı həm də "İnter"də Çempionlar Liqasında ardıcıl 5 oyunda qol vuran ilk futbolçu olub.

Qeyd edək ki, 2018-ci ildən "İnter"də çıxış edən 27 yaşlı hücumçu bu mövsüm bütün turnirlərdə 43 oyuna 21 qol vurub, 6 qol ötürməsi edib.